

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib



4

# Dünyaya iki mesaj




2

*Azərbaycan Prezidenti İlham Əliyev Forumdakı çıxışında hədəfləri dəqiq vurdu*

SƏS

№ 074 (6999)

4 may 2024-cü il.
Qiymәti 60 qəpik

# Konqresmenlərdən ABSURD YANAŞMA



6

## Dağıdıcı müxalifət yalnız trollardan ibarətdir



7

## Müstəqil Azərbaycanda mətbuat və söz azadlığı



11

## Dünyaya əyani nümunə



13

## Uca səslə danışmaq: MƏDƏNİYYƏT, YOXSA MƏDƏNİYYƏTSİZLİK?



10

## Çində YENİLİK: 2 nəfərlik uçan avtomobil satışa çıxarılır



16

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının energetika nazirini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul edib.**

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi. Söhbət zamanı ölkələrimizin OPEC+ çərçivəsində əməkdaşlığının önəmi vurğulandı.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığının aparıcı “ACWA Power” şirkəti arasında ölkəmizdə bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi və bu sahədə yaxşı potensialın olduğu bildirildi. Görüşdə COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunuldu.

# “Dostluq münasibətlərimiz uğurla inkişaf edir”



# Türkiyə mediası Prezident İlham Əliyevin Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki açıqlamalarına geniş yer verib







Bakıda keçirilən “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Prezident İlham Əliyevin tədbirin açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər dünya mətbuatında olduğu kimi, Türkiyə mediasında da geniş işıqlandırılıb.

Belə ki, Türkiyənin Anadolu Agentliyi, “Milliyyət”, “Hürriyet”, “Yeni Şafak”, “CNN Türk”, “TR Haber”, “İHA”, “İstiklal”, “Haberler.com”, “Türkiye Press”, “Son saat”, “Yeni gün” portalları, “TRT”, “Haber Global”, “TV 100” media qurumları, “Beyaz Qazete”, “Axşam” qəzetləri kimi bir çox KİV-lərində yer alan xəbərlərdə bu mötəbər tədbirə 100-dən çox ölkədən 700-dək mötəbər qonağın qatıldığı qeyd olunub.

Xəbərlərdə dövlətimizin başçısının Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri və bu baxımdan Forumun əhəmiyyəti, ölkəmizin bölgənin inkişafında rolu, eləcə də regionda sülhün və sabitliyin möhkəmlənməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində atdığı addımlar, Azərbaycanda müxtəlif etnik qrupların və dinlərin təmsilçilərinin bir ailə kimi yaşaması barədə fikirlərinə xüsusi yer verilib. “Azərbaycan Prezidenti Əliyev: Dünya məcburi assimilyasiyaya yol açan iyrənc neokolonializm praktikasına göz yummamalıdır”, “İlham Əliyev: Ermənistan ilə sülhə doğru gedirik”, “Əliyevdən Ermənistana mesaj: Çox fəal çalışırıq”, “Kritik toplantıdan əvvəl Əliyevdən yeni açıqlama: Danışıqlar hansı mərhələdədir?” sərlövhələrlə təqdim olunan informasiyalarda dövlətimizin başçısının fikirlərinə istinad edilərək bildirilib ki, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi qurumlar Avropadan kənarda bəzi ölkələrin daxili işlərinə qarışmağa cəhd edir, lakin neokolonial meyillərə qarşı susur.

Məqalələrdə Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında hər hansı vasitəçi olmadan sülh yolunda atılan addımlar, delimitasiya və demarkasiya işlərinə başlanılması, Azərbaycanın Ermənistanla sülh sazişi üzrə baza prinsiplərini və sülh sazişinin layihəsini hazırladığını qeyd etməsinə geniş yer verilib.

Qardaş ölkə KİV-lərində yer alan xəbərlərdə Prezident İlham Əliyevin Azərbaycanın tarixən mədəniyyətlərin qovuşduğu məkan olması barədə fikri xüsusi vurğulanıb: “Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır”.

Yazıların “Ermənistan xaricdəki dəstəkçiləri tərəfindən siyasi hücumlara məruz qalır”, “Biz Cənubi Qafqazda sülh







istəyirik”, “Buna iki ölkə arasında vasitəçi olmadan nail olduq” başlıqlı hissələrində 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam şəkildə bərpa etdiyi, bölgəmizdəki sülh prosesinə öz şəxsi, siyasi və iqtisadi maraqları üçün müdaxilə etmək istəyən ölkələrə qarşı mövqeyi, eləcə də Azərbaycanın yekdil qərarla COP29-a ev sahibliyi edəcək ölkə kimi seçilməsi ilə bağlı fikirləri də diqqətə çatdırılıb.

# Dünyaya iki mesaj




## Azərbaycan Prezidenti İlham Əliyev Forumdakı çıxışında hədəfləri dəqiq vurdu

***Azərbaycan sözdə yox, əməlində sülhpərvər, tərəqqipərvər, fərqli dinlərə, təriqətlərə, millətlərə, fərqli siyasi baxışlara hörmətlə yanaşan ölkə olduğunu dəfələrlə sübut edib.***

Hər zaman, dünyanın müxtəlif məkanlarında fərqli tribunalardan çıxış edən dövlətimizin başçısı cənab İlham Əliyev regionda sabitliyin, təhlükəsizliyin bərpa olunması üçün Azərbaycanın səylər göstərdiyini deyib və bütün bəşəriyyəti bu məsələyə diqqət göstərməyə çağırıb. Bunun ən bariz nümunəsi kimi, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Cənubi Qafqazda sülh naminə atdığı addımları göstərmək olar.

"Bir müddətdir ki, sərhədlərin delimitasiyası başlayıb, hətta demarkasiya işləri aparılır. Buna iki ölkə tərəfindən hər hansı vasitəçi olmadan nail olunub. Bu, bir daha göstərir ki, bizə vasitəçi lazım deyil, xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər. Onlar yardım etmək istəmir, onlar bizim bölgəyə siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar bu alova yenidən odun atmaq istəyirlər". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxışında deyib.

"Biz Cənubi Qafqazda bunun baş verməsinə imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik. Sülh bu bölgədə yalnız Azərbaycan ilə Ermənistan arasında normallaşma vasitəsilə əldə oluna bilər", - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan Prezidenti çıxışında müharibədən sonra regionda yaranmış vəziyyətdən danışıb. Azərbaycanın çox fəal çalışdığını, Ermənistana sülh sazişi ilə bağlı danışıqları başlamaq təşəbbüsü irəli sürdüyünü, hətta baza prinsiplərini və sülh sazişinin layihəsini hazırladığını vurğulayıb. Ötən ilin sentyabrında Azərbaycanın suverenliyini tam bərpa etdiyini söyləyən Prezident bundan sonra ölkəmizin siyasi hücumlara məruz qaldığını, buna baxmayaraq, yenə də sülhü təklif etdiyini deyib. Bildirib ki, indi isə biz müsbət tendensiyadayıq, sülhə doğru gedirik.

Vasitəçilərin səmərəsizliyi...




Azərbaycan 30 ilə yaxın bir müddətdə münaqişənin dinc yolla həlli üçün bütün imkanlardan istifadə etməyə çalışsa da, məhz ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti, Ermənistanın qeyri-konstruktiv mövqeyi uğur əldə olunmasına imkan vermədi. Əgər həmsədrlər həqiqətən də münaqişənin ədalətli, beynəlxalq hüququn normaları çərçivəsində həllində maraqlı olsaydılar, işğalçı ölkəyə qarşı təzyiqlər göstərilməsi, sanksiyalar tətbiq olunması istiqamətində konkret təkliflərlə çıxış edə bilərdilər. Lakin biz bu müddətdə həmsədrlərin təcavüzkara qarşı tamamilə loyal münasibətini müşahidə etdik. Azərbaycan torpaqlarının işğalı faktına qarşı heç bir ciddi, ardıcıl etiraz bildirilmədi. Təəssüf ki, bu da Ermənistanı işğalı davam etdirməyə həvəsləndirən əsas amillərdən biri oldu.

44 günlük Vətən müharibəsinin nəticələri regionda tamamilə yeni reallıq yaradıb. Bu müharibə yalnız hərbi-siyasi baxımdan deyil, geosiyasi və iqtisadi kontekstdə də yeni situasiya formalaşdırıb. Azərbaycan müharibədə qalib gəlməklə, cənab Prezidentin də qeyd etdiyi kimi, regionda yeni təhlükəsizlik formatı yaradılmasına nail olub. Eyni zamanda, yeni iqtisadi əməkdaşlıq perspektivləri yaranıb. Kommunikasiyaların açılması, çoxtərəfli iqtisadi əlaqələrin qurulması regionun həyatında yeni bir mərhələnin başlanması demək olacaq.

Yeni reallıqlar bölgədə yaşayan bütün xalqların həyatında ciddi dəyişikliklərə səbəb ola bilər. Həyata keçiriləcək irimiqyaslı layihələr region ölkələrinin və xalqlarının rifahına əhəmiyyətli töhfələr verəcək. İndi ən əsas məsələlərdən biri bütün ölkələrin, o cümlədən Ermənistanın və erməni xalqının yeni reallığın çağırışlarını düzgün qiymətləndirməsidir. Ermənistan hakimiyyəti və dövləti də keçmişə deyil, gələcəyə baxaraq öz xalqının mənafelərini düşünməli, ölkəsinin inkişafı üçün yaranan imkanlardan istifadə etməlidir. Keçmişə ilişib qalmağın bu ölkəni nə qədər geri atdığını daha aydın dərk etməlidirlər. Hesab edirəm ki, Prezident İlham Əliyevin çıxışlarında əksini tapmış fikirlər Azərbaycan dövlətinin yeni reallıqlar fonunda gələcəyə strateji baxışının əsas konturlarını əks etdirir. Cənubi Qafqazın tarixində qarşılıqlı faydalı əməkdaşlıq dövrü başlayır. Bu tarixi anı bütün region ölkələri düzgün qiymətləndirməlidir.

### İkinci mesaj

Azərbaycan Prezidenti İlham Əliyevin Forumda çıxışında əsas məqamlardan biri də ölkəmizdə ayrı-ayrı millətlərin, dini konfessiyaların birgə dinc yaşamasıdır. 44 günlük müharibədə bütün ölkə vətəndaşlarının səfərbər olması, düşmənə qarşı döyüşmək üçün silaha sarılması birliyimizin, bütövlüyümüzün ən bariz nümunəsi kimi tarixə yazılıb. Prezident qeyd edib ki, əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, "Bakı Prosesi"ni başlamalı idik və bildiyiniz kimi, üç ildən sonra "Bakı Prosesi" rəsmən təsdiqləndi. Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Forumuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır.

Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik.

Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam edəcəyik. Əminəm ki, bununla hər bir ölkə uğur qazana bilər. Çünki əgər siz birincisi, bu məsələləri daxilən nəzərdən keçirsəniz, elə bir mühit yaranar ki, bütün etnik qrupların, dinlərin nümayəndələri özlərini ləyaqətli, təhlükəsiz şəraitdə hiss edərlər və onlara münasibət ədalətli olar. Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər. Bu, ölkə daxilində parçalanmaya səbəb olar. Buna görə, məhz təcrübəmiz göstərir ki, biz müstəqilliyin ilk illərində çox çətinliklər yaşadıq və bu vəziyyətdən çıxa bildik. Çünki o vaxt işğal var idi, çox iqtisadi və sosial çətinliklər özünü büruzə verirdi. Azərbaycanı parçalamaq cəhdləri var idi və məhz aqressiv separatçılıq var idi. Bütün bunlar Azərbaycan xalqının məhz həmrəyliyini, birliyini sınağa çəkdi. Buna görə milli maraqların qorunması bizim uğurumuz üçün çox vacib amil idi. Əlbəttə ki, bu kontekstdə dini rəhbərlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Elə sizin də müzakirə edəcəyiniz məsələlərdən biri bununla bağlıdır. Forumda yüzdən artıq dini nümayəndə iştirak edir. Əminəm ki, onlar qarşılıqlı anlaşmanın və hörmətin gücləndirilməsinə töhfə verəcəklər.

Bəli, həm Ermənistanla heç bir vasitəçinin olmadığı halda demilitasiya və demarkasiya prosesinə başlamağımız, həm də Azərbaycanda bütün xalqların birgəyaşayışının təmini bizim ən böyük uğurumuz sayılır. Eyni zamanda bu, bütün dünyaya Azərbaycanın bir çağırışıdır, müharibələrin daha böyük miqyas almaması, bəşəriyyətə daha ciddi ziyan dəyməməsi, dünyada dostluq və barışın təmin edilməsi üçün vacibdir.

***V.VƏLİYEV***

# YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib















***Mayın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib. Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanov iştirak ediblər.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra yığıncağın gündəliyi barədə məlumat verilib. Gündəliyə YAP Həmkarlar İttifaqı Komitəsinin 25 avqust 2023 - 3 may 2024-cü il tarixlərini əhatə edən dövrdəki fəaliyyətinə dair hesabatı, YAP Həmkarlar İttifaqı Komitəsi Təftiş Komissiyasının həmin dövr üçün hesabatı və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının VII qurultayına nümayəndələrin seçilməsi məsələləri daxil edilib. Gündəlik səsə qoyularaq təsdiqlənib.

Daha sonra Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətinə dair hesabat dinlənilib. YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Məhəmməd Məhərrəmov bildirib ki, partiyanın Həmkarlar İttifaqı Komitəsi hesabat dövründə müxtəlif xarakterli tədbirlər həyata keçirib, işçilərin və onların ailələrinin mədəni-kütləvi tədbirlərdə iştirakı təmin olunub. Eyni zamanda, işçilərin sosial müdafiəsinin, asudə vaxtının və istirahətinin təmin edilməsi istiqamətində də müvafiq addımlar atılıb. Bundan başqa, şəhid ailələrinə və müharibə iştirakçılarına da maddi dəstək göstərilib.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin Təftiş Komissiyasının sədri Zəkiyyə Musayevanın təşkilatın gəlir və xərclərinin təftişinin nəticələri barədə hesabatı dinlənilib. Təqdim olunan hesabatlardan sonra müzakirələr aparılıb.

Çıxış edən YAP Gənclər Birliyi sədrinin müavini, YAP Həmkarlar İttifaqı Komitəsinin gənclər və idman məsələləri üzrə daimi komissiyanın sədri Fəsli Nəbiyev və YAP Həmkarlar İttifaqı Komitəsinin mədəni-kütləvi tədbirlər üzrə daimi komissiyanın sədri Xatirə Əliyeva hesabat dövrü ərzində fəaliyyətin qənaətbəxş qiymətləndirilməsini təklif ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov YAP Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətini müsbət dəyərləndirib. O qeyd edib ki, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı bundan sonra da işçilərin əmək və sosial hüquqlarının təmin olunması ilə əlaqədar YAP Həmkarlar İttifaqı Komitəsi ilə fəal əməkdaşlıq edəcək.

Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək partiyanın Həmkarlar İttifaqı Komitəsinin hesabat dövrü ərzindəki fəaliyyətini qənaətbəxş qiymətləndirib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətində ünvanlılıq, şəffaflıq və sosial ədalət prinsipləri daim əsas götürülməlidir. YAP Mərkəzi Aparatının rəhbəri təşkilatın bundan sonrakı dövrdə işini daha səmərəli qurması üçün müvafiq tövsiyələrini verib. Müzakirələrin sonunda hesabat yığıncağının müvafiq qərarı qəbul olunub. Komitənin hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib. İclasda, həmçinin YAP Həmkarlar İttifaqı təşkilatından Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının VII qurultayına iki nəfər nümayəndənin seçilməsi barədə qərar qəbul edilib.

# Bakcell Fəvvarələr Meydanında yeni innovativ mağazasını təqdim etdi!




***Bakcell Fəvvarələr Meydanında yeni brend kimliyinə uyğun innovativ mağazasını təqdim etdi. Mayın 3-dən etibarən fəaliyyətə başlayan mağazanın açılışında Bakcell-in süni intellekt dəstəkli insanabənzər robotu Ardi iştirak edib.***

Yenilənmiş mağaza üstün xidmət mərkəzi olmaqla birgə müasir müştəri yanaşmasını sərgiləyən "high-tech" təcrübə məkanıdır. Belə ki, mağaza müştərilərə yüksək keyfiyyətli xidmətlərlə yanaşı, oyun həvəskarları üçün VR zona, yeni nəsil texnologiya aləti Apple Vision Pro və rəqəmsallaşdırılmış monitorlar da təqdim edir.

Müştərilər "Bakcell"in növbəti həftələrdə təqdim edəcəyi yeni məhsullarla yerində tanış ola və onları birbaşa mağazadan əldə edə bilərlər. Hacı Zeynalabdin Tağıyev küçəsi 19 (Fəvvarələr Meydanı) ünvanında yerləşən yenilənmiş mağaza həftəiçi 9:00-dan 20:00-a, həftəsonu 10:00-dan 18:00-dək fasiləsiz fəaliyyət göstərir.

Qeyd edək ki, "Bakcell"in yeni təqdim olunmuş brend strategiyası gələcəyə hədəflənərək Azərbaycan üçün innovativ xidmətlər təqdim etməkdir.

# İkinci Dünya müharibəsindəki Qələbədən 79 il ötür



Dövlət başçısının Sərəncamı ilə Qələbənin 79-cu ildönümü ilə əlaqədar birdəfəlik yardım ödəniləcək





***9 may - alman faşizmi üzərində qələbədən 79 il ötür. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlar rolu əvəzsiz olmuşdur. 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xüsusi qayğının növbəti təzahürüdür. Prezident İlham Əliyevin Sərəncamına əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar birdəfəlik yardım ödəniləcək. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2000 manat birdəfəlik maddi yardım ödəniləcək.***

Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

## SƏRƏNCAM ÜMUMİLİKDƏ 3 MİNƏ YAXIN ŞƏXSƏ ŞAMİL OLUNACAQ

Sərəncamın ümumilikdə 3 minə yaxın şəxsə şamil olunacağı gözlənilir ki, onlardan 30-u İkinci Dünya müharibəsi iştirakçılarıdır.Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb.Bu tarixi qələbədə Azərbaycanın, onun neftinin əhəmiyyəti danılmazdır. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilib, 1941-1945-ci illərdə respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salınmışdır. Göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci kimi milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək, qəhrəman övladlarımız Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsinin düşməndən azad edilməsi uğrunda rəşadətlə döyüşmüşlər. Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Dahau, Zaksenhauzen, Ravensburyuk, Treblinka və b. ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər. 1942–1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer-Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər. Təkcə Fransanın cənubunda gedən partizan hərəkatında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizanların zərbə briqadasında 600 nəfərdən çox azərbaycanlı vuruşmuşdu.

## "TARİX BU GÜN DƏ BİLMƏLİDİR Kİ, İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XİDMƏTİ, FƏALİYYƏTİ, ROLU ÇOX BÖYÜK OLMUŞDUR"

1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri içərisində Azərbaycan partizan dəstəsi də var idi. Sonrakı illərdə Belarusiya torpaqlarında və Baltikyanı Respublikalarda da azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə geniş miqyasda iştirak etmişlər. Azərbaycanlılardan Ukrayna torpaqlarında faşistlərə qarşı mübarizədə 5000 nəfərə qədər, Belarusiya torpaqlarında isə 1000 nəfərə qədər döyüşçü partizan dəstələrində fəal iştirak etmişlər. Azərbaycanlı döyüşçülər partizan dəstələri tərkibində Avropanın bir neçə ölkəsində faşistə qarşı müqavimət hərəkatında fəal iştirak etmişlər.

Qələbənin təmin edilməsində Azərbaycanın böyük xidmətləri haqqında xalqımızın Ümummilli Lideri Heydər Əliyev demişdir: "Əgər Bakının nefti olmasa idi, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi". Heydər Əliyev başqa bir çıxışında xalqımızın xidmətləri haqqında "Tarix bu gün də bilməlidir ki, İkinci dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyə bildirmişdir. Ulu Öndər Heydər Əliyev 2003-cü ilin 25 fevralında Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda çıxışında bildirmişdir ki, çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci dünya müharibəsində SSRİ-nin İngiltərə-Amerika koaliyasiyası ilə birlikdə alman faşizmine qalib gəlməsi mümkün olmazdı.

Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə dediyi fikri xatırlatmaq yerinə düşər: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq". Bu məqsədlə Hitler Xəzər boyunca, Qroznı-Maxaçqala-Bakı istiqamətində hücuma keçmək və hərbi təyyarələrdən desant buraxmaq haqqında tank və aviasiya komandanlarına əmr vermişdi. Lakin 1942-ci ilin avqust ayının sonunda faşist ordu hissələri Şimali Qafqazda Terek çayının sahillərinə çıxsalar da, güclü müqavimətlə üzləşib irəliyə doğru hərəkət edə bilmədilər. Buna baxmayaraq, 1942-ci il sentyabr ayının 16-da SSRİ-nin Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi, və bu qərara əsasən 1942-ci ilin sentyabr ayının 24-də Azərbaycanda hərbi vəziyyət elan edildi.

Onların qəhrəmanlığı, fədakarlığı heç zaman unudulmur. Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, veteranlara ikinci həyatı Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. Ulu Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı. Belə ki, xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. 9 May faşizm üzərində qələbədən 79 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var.

Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

TƏHLİL

*Azərbaycanın Qarabağ iqtisadi rayonunu öz xoşları ilə tərk edən haylara koçkün adını qoyub 200 milyon dollar ayırmaq növbəti Qərb haqsızlığı, ədalətsizliyi və ikiüzlülüyündən başqa bir şey ola bilməz. İndi də 66 amerikalı konqresmenin məhz Qarabağı öz xoşu ilə, yaxud da Ermənistan hakimiyyətinin, eləcə də qondarma rejimin təkidi ilə tərk edən həmin o qondarma köçkünlərə vəsait ayrılması, eləcə də ABŞ-ın hərbi yardımını artırması çağırışı etməsi daha bir təxribatdır.*

# Konqresmenlərdən ABSURD YANAŞMA



### Ümid edirik ki, rəsmi Vaşinqton bununla bağlı lazımi ölçü götürər və həmin konqresmenlər öz "hesablarını" alarlar

Konqresmenlər guya müdafiə məqsədi ilə Ermənistana 20 milyon dollar ayrılmasını da tələb edirlər. Bundan əlavə, onlar Ermənistana xaricdə hərbi təhsil və təlim, hüquqi və demokratik islahatlar üçün daha 10 milyon dollar ayrılmasına da çağırış olunub. Həmin konqresmenlər "Azərbaycanın Ermənistana qarşı yeni müharibəyə başlamaq niyyətindən" guya xüsusi narahatlıqlarını da ifadə edirlər. Eyni zamanda, amerikalı qanunvericilər hətta ABŞ Dövlət Departamentini və beynəlxalq təşkilatları "Azərbaycan hökumətini insan hüquqlarının pozulmasına görə məsuliyyətə cəlb etməməkdə" qınayıblar da. Bu, zənnimizcə, artıq həddin aşılması deməkdir və ümid edirik ki, rəsmi Vaşinqton bununla bağlı lazımi ölçü götürər və həmin konqresmenlər öz "hesablarını" alarlar. Çünki belə bir absurd yanaşma və ABŞ Dövlət Departamentini qınamaq artıq müvafiq ölçü götürülməsini gündəmə gətirir və labüd edir.

### Bu təşəbbüsü ABŞ-ın Cənubi Qafqazda möhkəmlənmək cəhdi kimi də qiymətləndirmək olar

Bəli, bir sıra Amerika konqresmenləri tərəfindən belə bir absurd təşəbbüs artıq irəli sürülüb. Onun müəllifi də öz ermənipərəstliyi və simasızlığı ilə bizə çoxdan tanışdır. Bu, ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü, özünü uzun müddət ermənipərəst konqresmen kimi təsdiq etmiş Dina Titusdur. O, ABŞ Konqresinə çağırışa imza atan bütün personajlar kimi, sadəcə olaraq, ABŞ-dakı erməni diasporasına olan borclarını bağlamaq niyyətindədir. Bunu başa düşmək çətin deyil. Çünki uzun müddətdir onun məhz erməni lobbisinin əlində alət olması fonunda başqa gözləntilərin olması da mümkünsüzdür. Bununla belə, məsələyə daha geniş şəkildə yanaşsaq, bu təşəbbüsü ABŞ-ın nəhayət Cənubi Qafqazda möhkəmlənmək cəhdi kimi qiymətləndirmək də olar. Amma etiraf etmək lazımdır ki, belə bir təşəbbüslə heç bir ölkə regionda möhkəmlənə bilməz. Ümumiyyətlə, regionda artıq söz sahibi olan Azərbaycan kimi bir qüdrətli dövlət var və hansısa qüvvələrin məkrli niyyətlərinin heç bir mənası ola bilməz. Çünki buna imkan verilməz. Əvvəla ona görə ki, biz özümüzə güvənirik və Azərbaycan regionda sülhün də, təhlükəsizliyin də, sabitliyin də keşiyində durmağa qadirdir və ümumiyyətlə, bölgədə sabitliyin qarantı da elə məhz Azərbaycandır. Digər tərəfdən də axı, demokratiya, azad söz adı altında Amerikanın nə kimi fitnələr törətdiyi artıq qonşu dövlətlərin təcrübəsindən bizim üçün çoxdan bəllidir.

Rəngli inqilabların müəllifi olan Qərb qonşu ölkələrə, nə Ermənistana, nə də Gürcüstana "xoşbəxtlik" gətirməyib

Bu vaxta qədər Amerikanın məhz Ermənistanda, Gürcüstanda demokratiya adı altında nə kimi "oyunlar" oynadığını və bununla da hansı fitnələr törətdiyini çox yaxşı xatırlayırıq. Rəngli inqilabların müəllifi olan Qərb nə Ermənistana, nə də Gürcüstana "xoşbəxtlik" gətirməyib. Əksinə, həmin inqilabların fonunda qonşu ölkələrdə nə kimi xaos, necə qarmaqarışıqlıqlar olduğu heç kimə sirr deyil. Çünki bu qarışıqlığı hər kəs çox asanlıqla müşahidə edir. Əgər amerikalıların müəllifi olduqları inqlab bir məna kəsb etsəydi, yaxud, qiymətli olsaydı, ermənilər həmin inqilabın bu aralarda ildönümünü qeyd edərdilər. Amma nəinki qeyd etmədilər, heç yadlarında da düşmədi. Əksinə, unutduqlarından bəlli oldu ki, həmin o rəngli inqilaba nifrət edirlər. Yaxud da, amerikalıların bir zamanlar irəli verdikləri Saakaşvilinin bu günkü halı, həbsxanada hansı şəkildə yaşaması, buna reaksiya belə verilməməsi çox mətləbdən xəbər verir. İndi yenə də qonşu Gürcüstanda nələr baş verdiyini izləyirik. Hakim "Gürcü Arzusu" partiyasının xarici agentlər haqqında qanunu irəli sürməsi səbəbindən orada cəmiyyətdə parçalanmanın olduğu heç də gizli deyil. Mayın 1-də Gürcüstan parlamentinin bu qanun layihəsini ikinci oxunuşda qəbul etməsi, 83 nəfər lehinə, 23 nəfər əleyhinə səs verməsi də bəllidir. O da bəllidir ki, Respublikanın baş naziri İrakli Kobaxidze hakim partiyanın bu qanunu hər üç oxunuşda qəbul etməkdən imtina etmək niyyətində olmadığını bildirib. Gürcüstan prezidenti Salome Zurabişvili isə əksinə, "veto" qoyacağını vəd edir və etirazçıları fəal dəstəkləyir. Deməli, Amerikanın hər zamankı kimi gətirə bildiyi xaos artıq başlayıb.

### Amerika Birləşmiş Ştatları ölkələrin daxili işlərinə açıq-aşkar və həyasız şəkildə müdaxilə edir

Heç şübhəsiz ki, bu qanunun qəbul edilməsi və ya qəbul edilməməsi Gürcüstanın daxili işidir. Həmin ölkədə qanuni yolla seçilmiş legitim hökumət, eləcə də demokratik yolla seçilmiş parlament var və barəsində qeyd olunan qanunun qəbul edilib-edilməməsinə də həmin hökumət və parlament qərar vermək hüququna malikdir. Bunun əksinə çıxış edilməməlidir. Amma biz nəyi müşahidə edirik? Gördüyümüz nədir? Gördüyümüz odur ki, Amerika Birləşmiş Ştatları Gürcüstanın daxili işlərinə açıq-aşkar və həyasız şəkildə müdaxilə edir. Bu həyasızlıq o həddə çatıb ki, ABŞ-ın Gürcüstandakı səfirliyi xarici agentlərlə bağlı qanun layihəsinə etiraz edənlərə dəstək ifadə edib və Amerika diplomatik xidmətinin "Gürcüstan xalqının yanında olduğunu" bildirib. Amerikalıların bu oyunlarının məqsədi bəllidir və başlıca məqsəd, öz idarəçiliyini öz himayədarlarına həvalə etmək üçün Gürcüstanda hakimiyyət dəyişikliyinə nail olmaqdan ibarətdir.

Amerikanın hakimiyyət dəyişikliyi ssenarisini 2018-ci ildə Ermənistanda müşahidə etdikdən sonra indi də görürük ki, həmin o inqilabı təşkil edənlər artıq hakimiyyətdədirlər. Görürük ki, onlar müxtəlif Amerika fondlarının himayədarlarıdır. İndi də onlara mümkün qədər tez Rusiyadan təcrid olunmaq, KTMT və Aİİ-dən çıxmaq, Gümrüdən Rusiya hərbi bazasını çıxarmaq barədə aydın tapşırıqlar verildiyi sirr deyil. O da sirr deyil ki, bununla da rus hərbçilərini fransız və ya amerikalılarla əvəz etmək niyyəti var. Daha dəqiq desək, bütün bu strategiya Ermənistanı Qərbə yönləndirmək üçün nəzərdə tutulub. Deməli, hələ də işğalçı ölkənin daxili işlərinə amerikalılar müdaxilə etməkdədir. Bu yaxınlarda Brüssel görüşünün nəticələrinə görə razılaşdırılan Aİ və ABŞ-ın Ermənistana maliyyə, hərbi və siyasi dəstəyi də bu səbəbdəndir. Bundan əlavə, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, yəni USAID Ermənistanla ABŞ arasında ticarətin inkişafına əlavə olaraq 33 milyon dollar sərmayə qoyur. Bu barədə USAID-in bizim hamımıza tanış olan simasız siması Samanta Pauer məlumat verib. Deməli, hər şey bəllidir və zənnimizcə bütün bunlardan sonra nəyə isə izahat verməyə ehtiyac qalmır, eyni ilə isbata ehtiyac duymayan aksiom kimi.

### Konqresmenlərin işğalçı ölkəni dəstəkləmək təklifi təxribat təşəbbüsü, Cənubi Qafqazın lider dövləti olan Azərbaycana təzyiq cəhdidir

İndi də bəlli olur ki, 66 amerikalı konqresmenin Ermənistanı dəstəkləyən daha bir addımı ilk növbədə təxribat təşəbbüsüdür. Eyni zamanda bu, Cənubi Qafqazın lider dövləti olan Azərbaycana təzyiq cəhdidir. Bu təşəbbüs təxribat və təzyiq olmaqla yanaşı, həm də çox iyrənc bir addımdır. Ona görə ki, az qala əsrin üçdə birinə yaxın müddət ərzində beynəlxalq hüquqa məhəl qoymayan, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan dövlətə maliyyə yardımı edilməsi təklifinin başqa adı ola bilməz. Xocalıda soyqırım törədənlərə, bu faktı həyasızlıqla etiraf edənlərə, bir vaxtlar çiçəklənən Ağdamı "Qafqaz Xirosiması"na çevirənlərə, bir milyondan artıq azərbaycanlını qaçqın və məcburi köçkün kimi 30 ildən artıq müddət ərzində yaşamasının səbəbkarlarına yardım, dəstək təşəbbüsü həyasızlıqla edilən absurd yanaşmadır. Əgər absurd olmasaydı bu sadalanan əməlləri, insanlığa sığmayan vəhşilikləri törədənlərə bir sanksiya tətbiq olunması təklifi ilə çıxış edilərdi. Amma biz görürük ki, amerikalı konqresmenlər Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni yaşamış ermənilərə 200 milyon dollara qədər vəsaitin ayrılması təklifini irəli sürürlər və buna ən yaxşı halda absurd yanaşma demək olar.

### Sözügedən təxribat təşəbbüsü ABŞ-ın xaosa meyilli olduğunu da təsdiq edir

Sözsüz ki, amerikalı konqresmenlərin haqqında qeyd olunan təxribatçı hərəkətləri ABŞ-ın xaosa meyilli olduğunu da təsdiq edir. Əks halda, işğalçıya yardım, dəstək barədə həmin ölkədə nəinki təklif və təşəbbüs irəli sürülər, bu heç dilə də gətirilə bilməzdi. Məhz xaos yaradaraq, elə yaratmağı planlaşdırdıqları qarışıqlıqlardan istifadə edərək, bütün Cənubi Qafqazı özünə tabe etməyə çalışdıqları da göz önündədir. Amma bunun reallaşacağına heç özləri də inana bilməzlər. Çünki regionun təhlükəsizliyinə, sabitliyinə Azərbaycan kimi bir qüdrətli ölkə qarant hesab olunur. Həmçinin, Azərbaycan artıq dəfələrlə də sübut edib ki, şantaj dili ilə danışmaq da onlar üçün heç bir nəticə vermir. Yəni, hansısa başqa xülyaya düşsələr belə bunun mənasız olduğunu indidən bilməlidirlər və hətta bilirlər də. Azərbaycan regionun lider dövlətidir, təhlükəsizlik qarantıdır və hansısa absurd yanaşma bu reallığı və bu həqiqəti dəyişmək iqtidarında ola bilməz.

***İnam Hacıyev***

# Dağıdıcı müxalifət yalnız trollardan ibarətdir

*Müasir dövrün yenilikləri bəzi işbazların əlqolunun açmasına imkanlar yaradıb. O mənada ki, işbazlar müxtəlif sosial şəbəkə vasitələrindən istifadə etməklə özlərinin sərsəm, cəmiyyət üçün arzuolunmaz ideyalarını, təkliflərini ütülənmiş formada təbliğ və təqdim edirlər. Təəssüflər olsun ki, onların əndrabadi ideyalarını dəstəkləyənlər də olur. Belə dəstəkçilərin sayı az olsa da, hər halda var və bu, heç də müsbət hal olaraq qiymətləndirilə bilməz.*



Çünki cəmiyyətin sağlam, intellektli, geniş dünya görüşünə malik insanların varlığına ehtiyacı var. Əgər ortaya məntiqsiz ideya müəllifləri çıxıb bayağı, heç bir ciddi əsası olmayan ideya və təkliflər dövriyyəyə buraxılırsa, bu, artıq böyük, möhtəşəm, milli maraqlara söykənən ideyaların cüzi də zədələnməsinə cəhd deməkdir. Misal olaraq, cəmiyyətdə dağıdıcı müxalifət olaraq tanınan AXCP, Müsavat, "Milli Şura" kimi qurumların rəhbərlərinin sosial şəbəkələr üzərindən ölkəmizin milli və dövlətçilik maraqlarına zərər vura biləcək fəaliyyət yolu tutmalarını göstərmək olar. Əli Kərimli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Seymur Həzi və digərləri SOROS-un ayırdığı qrantlara arxalanıb, Azərbaycanla bağlı qərəzli açıqlamalar verir, videolar paylaşırlar. Xüsusilə də, baş troll hesab edilən Əli Kərimli canfəşanlığı ilə seçilir. Bu məxluq özünü gah siyasətçi, gah da bloger kimi təqdim etməyə çalışsa da, cəmiyyət onu maraqlı tərəflərin trolu olaraq tanıyır. Sadəcə, Ə.Kərimlinin digər trollardan fərqi ondan ibarətdir ki, xarici maraqlı dairələr birbaşa onunla işləyirlər. Yəni, Ə.Kərimliyə maddi yardımlar göstərir və qarşılığında müəyyən işlər tələb edirlər. Bu əməkdaşlıq çərçivəsində Ə.Kərimli hər vəchlə çalışır ki, ətrafına daha çox trol toplaya bilsin. Ədalət naminə demək olar ki, qismən də olsa bu istiqamətdə məqsədinə nail ola bilib. Məram və məqsədlərini anlamayan pul hərisi olan Fuad Qəhrəmanlı, Seymur Həzi, İlham Hüseyn,Natiq Ədilov və digərləri vaxtaşırı olaraq xor dərnəyinin banlayan üzvləri kimi Ə.Kərimlinin şər və böhtan xarakterli paylaşımlarını bəyənir və öz səhifələrində paylaşmaqla dəstəkləyirlər. Nədi-nədi Ə.Kərimli aldığı qrantdan onlara da verir. Bu isə utancvericidir. Çünki özünə hörmət etməyi bacaran şəxs kiminsə tapşırıqlarına boyun əyib, trolluq etməz.

### Əli Kərimli dəstəbaşı statusunu itirə bilər

Faktlara və baş verən proseslərə istinad etsək, o zaman demək olar ki, dəstəbaşı Ə.Kərimlinin və trollarının cəhdləri uğursuzluğa düçar olur. Buna baxmayaraq hələ də hərəsi əlinə bir zurna alıb nəzarətsiz zona hesab olunan sosial şəbəkələrdə piləmək də davam edirlər. Bu isə onların həddindən artıq riyakar və abırsız məxluq olduqlarını göstərir. Hər gün mitinq hazırlıq şousundan danışan dağıdıcı müxalif ünsürlər aradabir qrant əldə etmək üçün gəlirli iş hesab oluna "siyasi məhbus" məsələsindən də geninə-boluna istifadə edirlər. Bu məsələdə onlara "Azadlıq", "Amerikanın səsi", "BBC" və bu kimi digər xarici radio və internet TV-lərdə yardımçı olurlar. Bir növ qidalandıqları mərkəzi şəbəkədən gələn sifarişləri yerinə yetirirlər. Gülüş doğuran və ironiya ilə qarşılanan hal ondan ibarətdir ki, bəzi hallarda sözügedən xarici radiolar özlərini müstəqil radiolar kimi təqdim etməyə cəhd edirlər. Halbuki, "Azadlıq" radiosu ABŞ Konqresindən maliyyələşir. "Azadlıq" radiosunun nizamnaməsində qeyd edir ki, Konqres tərəfindən maliyyələşdirilməsinə baxmayaraq, müstəqil KİV qurumudur, informasiya siyasətində azaddır. Lakin radionun Azərbaycana qarşı qərəzli və sifarişli reportajları onu deməyə əsas verir ki, nizamnamədə yazılanlar cızma-qaradan başqa bir şey deyil.

### "Azadlıq" radiosu ABŞ-ın qaranlıq dairələrinin boyunduruğu altındadır. İstəsə belə müstəqil ola bilməz

"Azadlıq" radiosu Faransa senatı, ABŞ Konqresi, AŞPA nümayəndələri kimi ermənipərəst mövqe nümayiş etdirir, Azərbaycana qarşı qərəzli şər və böhtanlar səsləndirir, reportajlar yayır. Fevralın 7-də keçirilən zəfər seçkisi zamanı və ondan sonra bu radionun tutduğu qərəzli və ikrah doğuran mövqe hər kəsə, o cümlədən xarici ölkələrin dinləyicilərinə də məlumdur. Sonrakı mərhələdə bu radio hər bir xırda məişət pozuntusunu qabardıb, onu qlobal problem kimi dinləyicilərinə təqdim etməyə çalışdı. Bu isə onu bir daha təsdiq edir ki, "Azadlıq" radiosu ABŞ-ın qaranlıq dairələrinin boyunduruğu altındadır. İstəsə belə müstəqil ola bilməz. Çünki əks halda işçiləri maaşdan və ən əsası işlərindən ola bilərlər. Radionun Azərbaycanın dağıdıcı müxalifəti ilə eyni maraqları bölüşməsi və birgə iş aparmaları onu təsdiq edir ki, xarici maraqlı dairələr belə məsləhət görüblər. Fikir verin, dağıdıcı müxalifətin yaydığı istənilən şantaj və böhtan xarakterli informasiya ilk növbədə "Azadlıq" radiosunda işıq üzü görür. İndi də "siyasi məhbus" şousu və mitinq oyunları ətrafında "Azadlıq" radiosu və dağıdıcı müxalifət birlikdə müxtəlif məzhəkələr qurub, informasiyalar paylaşırlar. Lakin əminliklə demək olar ki, bu cür qərəzli oyunlar onların özlərinə növbəti rüsvayçılıqlar gətirəcək. Çünki Azərbaycan ictimaiyyəti ilə yanaşı, tərəqqipərvər xalqlar da ölkəmizin azad və demokratik, hüquqi bir dövlət olduğunu yaxşı bilirlər. Onu da bilirlər ki, istər "Azadlıq" radiosunun, istərsə də dağıdıcı müxalifətin çirkin məqsədləri nədən ibarətdir və bu məqsədləri dövriyyəyə buraxılması göstərişləri hansı ünvanlardan gəlir. Ona görə də onların sözləri və fikirləri sadəcə boşboğazlıqdan başqa bir şey deyil.

**İLHAM ƏLİYEV**

---

MÜNASİBƏT

# "Multikultural dəyərlər bu xalqın qanında və canındadır"



*"Azərbaycan xalqı dünyanın mədəni inkişafına böyük töhfələr verib". Bu sözləri SİA-ya açıqlamasında deputat Anar İsgəndərov deyib.*

O bildirib ki, Azərbaycan cəmiyyəti formalaşandan bəri elə bir ərazinin sahibi olub ki, bu ərazidə bu gün azərbaycanlı dediyimiz əhali ilə yanaşı qeyri-azərbaycanlılar da yaşayıblar: "Qədim dövrlərdə İslama qədərki mədəniyyətimizdə həm atəşpərəstlik, həm də xristianlıq mövcud olub. Hər iki dinin uğurları burada yaşayan əhalini bir-birinə düşmən etməmişdir. Ən nəhayət, İslamın Azərbaycan xalqının taleyinə və tarixinə daxil olmasından sonra Azərbaycan xalqı vahid düşüncə sahibi kimi inkişaf edib və dünya mədəniyyətinə böyük töhfələr vermişdir.

Doğurdan da xalqımız tolerantdır. Multikultural dəyərlər bu xalqın qanında və canındadır. Həyatı boyu xalq, dövlət olaraq qarşılıqlı hörmət, dostluq və tərəfdaşlıq kimi əsas prinsipləri həmişə qoruyub saxlayıb. Böyük mədəniyyət mərkəzi olan bu ərazi həm də böyük təsərrüfat mərkəzi olub. İqlimi yumşaq olduğuna görə bol, bərəkətli çölləri, çayları Azərbaycan xalqına imkan verib ki, həmişə əlini dost üçün açsın, ehtiyacı olanlara kömək etsin. Bu da tarix boyu bizim xalqımızın adət-ənənəsində qonaqpərvərlik düşüncəsini birinci edib. Bu gün də xalq olaraq dünyanın ən qonaqpərvər xalqları sırasında da yerimiz var. Azərbaycanın daxilində də mədəniyyətlərarası dialoqun olması, Azərbaycanda yaşayan insanların dil, din fərqi, düşmən münasibətlərinə gətirib çıxarmayıb. Əslində bu müxtəlif inanclara hər bir xalq tək öz inancına yox, qonşu xalqın dininə, məzhəbinə də böyük hörmətlə yanaşıb. Azərbaycan bu cəhətdən də nümunədir. Heç zaman dini məzhəb və dil baxımından insanlar arasında kiminsə digərinə yuxarıdan aşağı baxması halları olmayıb. Azərbaycanda kimlər yaşayırsa, Azərbaycan vətəndaşıdır və Azərbaycan qanunları da onları bir-birindən ayırmayır".

"Təsəvvür edin, ilk dəfə olaraq təkcə Cənubi Qafqazda, müsəlman şərqində yox, dünyada ilk qanunlardan biri Azərbaycan xalqına məxsusdur ki, 1919-cu ildə Azərbaycan Parlamenti seçkilərdə kişi və qadın bərabərliyi elan etdi. Halbuki, bu gün demokratiyadan bizə dərs demək istəyən Avropa ölkələrində bu qanun ikinci dünya müharibəsindən sonra qəbul olunub. Azərbaycanda yaşayan insanlar təkcə din və dil fərqləri yox, ailə baxımından da nümunəvi ailələrlə üz-üzə gəlirlər. Azərbaycanda tarix boyu ailə müqəddəs sayılıb. Ailəyə böyük hörmət olub, ailənin başçısı ata-ana öyrədən, yol göstərən olub. Övladların da borcu həmin ailə başçılarının dediklərə riayət etmək olub. Azərbaycanda həmişə ailələr kiçik dövlətlər sayılır.

Bu kiçik dövlətlər də öz ailələrini uğurla idarə ediblər. 70 illik Sovet dövründə Sovet ideologiyası dinimiz, dilimiz, mədəniyyətimiz, bayramlarımızla bağlı nə qədər qadağalar olsa da xalq onları yaşatdı. Məscidlərimiz bağlı olsa da, müqəddəs münasibətlərimizi yaddan çıxarmadıq. Müqəddəs Quranı-Kərimi gizlətsək də, həmin otağa girəndə belə Quranın zəhmini, onun gücünü həmişə hiss etmişik. Bu mənada Sovet dövründən sonra Azərbaycan Dövlət müstəqilliyi bərpa etdikdən sonra ilk illərin çətinlikləri oldu. Azərbaycanın blokadaya alınması, torpaqlarımızın işğalı, iqtisadi çətinliklər, Qərbi Azərbaycandan minlərlə vətəndaşımızın qovulması və sair yaşandı. Sonda qalib gələn Azərbaycan xalqı oldu. Çünki Azərbaycan xalqı həmişə vahid xalq kimi çətinliklərlə üz-üzə gələndə qalib olub. Bu zaman hamı bir nəfər kimi birləşib. Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində qalib gəlməyimizin əsas şərtlərini göstərərkən qeyd edir ki, 10 milyonluq xalq "Dəmir yumruq" kimi birləşdi. Xalq və iqtidar birliyi yarandı. Bu birliyin nəticəsidir ki, Azərbaycan düşməni darmadağın etdi.

Azərbaycan həmişə bu birliklə bağlı nümunə olub. 1993-cü ildə Azərbaycanın Ümummilli lideri Heydər Əliyev Azərbaycan xalqını vahid qüvvə şəklində birləşdirməklə Azərbaycanda vətəndaş müharibəsinin qarşısını aldı. 1993-cü ildən sonra Azərbaycan bütün çətinlikləri keçdi. Bu gün dünyanın ən inkişaf etmiş dövləti olan Azərbaycana çevrilmişik.

Azərbaycandakı xalqların bir-birinə münasibəti dünyaya nümunədir. ABŞ başda olmaqla Qərb Azərbaycana böhtanlar atır. Bu böhtanlar dənizdən bu tərəfə gəlib keçə bilməz. Çünki biz xalq, dövlət olaraq nümunəyik. Dini düşüncə baxımından Azərbaycanda yaşayan xalqların münasibəti onu göstərir ki, həmin müsəlman, xristianlar bərabərlik görüb. Bu gün də dini, dövlət tədbirlərində birlikdə iştirak edir, Azərbaycanın uğurlarını təbliğ edirlər. Bu, dünyanın heç bir xalqına nəsib olmayıb, yalnız Azərbaycan xalqının uğurudur" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

---

# Türkiyə İsraillə bütün ticarəti dayandırıb – Ərdoğan təsdiqlədi



Qəzzadakı müharibə səbəbindən Türkiyə İsraillə ticarəti dayandırıb. SİA-nın xarici qaynaqlardan əldə etdiyi məlumata görə, mayın 2-dən etibarən malların idxalı və ixracı dayandırılıb. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin Qəzza zolağında yürütdüyü siyasətə görə İsraillə ticarət və iqtisadi əlaqələri dayandırmaq məcburiyyətində qaldığını bildirib. Bu barədə Türkiyə dövlətinin başçısı hakim Ədalət və İnkişaf Partiyasının X sosial şəbəkəsindəki hesabında yayımlanan tərəfdarları qarşısında çıxışı zamanı bildirib.

Ərdoğanın sözlərinə görə, 40-45 min fələstinlinin ölümünə görə İsrail Müdafiə Qüvvələri məsuliyyət daşıyır. Qeyd edək ki, əvvəllər Türkiyə ilə İsrail arasında ticarət dövriyyəsi 9,5 milyard dollara yaxın olub. Prezident xatırladıb ki, böhrandan əvvəl də ABŞ-da baş nazir Benyamin Netanyahu ilə görüşərək ikitərəfli münasibətlərin vəziyyətini müzakirə edib və Yaxın Şərqdə sabitlik üzərində birgə işləməyə çalışıb.

**Nazlı**

# Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli Liderin ideyalarına əsaslanır



***Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Tariximizin ən çətin və keşməkeşli dönəmlərində Azərbaycanın və xalqımızın xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış ulu öndər Heydər Əliyev məhz belə bənzərsiz dahi tarixi şəxsiyyətdir.***



**Coşqun Hidayətov**
**YAP Gənclər Birliyinin üzvü**

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter almasıHeydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.O, bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş onun adı ilə bağlıdır. Heydər Əliyev ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi.Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzüldə olan dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək, gələcək inkişafa hesablanmış neçə-neçə layihənin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Ölkənin dünya birliyinə inteqrasiyası prosesinə başlanması dövlətimizin tərəqqi yolunda inamla irəliləməsini təmin etdi, Azərbaycanın qarşısında aydın perspektivlər açıldı.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu sıraya təkmil siyasi sistemin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, həmçinin milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması aid edilə bilər.

**HEYDƏR ƏLİYEV FONDU**

Heydər Əliyevin təməli həmin dövrdə qoyulmuş azərbaycançılıq ideologiyası Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyev dövlət başçısı kimi döv¬lətin müstəqilliyinin qorunub saxlanmasını və onun ərazi bütövlüyünün təmin edilməsi¬ni özünün ən ümdə vəzifələrindən biri hesab edirdi və bütün fəaliyyətini bu məqsədlər ətrafında nizamlayırdı. Ulu öndər o zaman işğal altında olan torpaqlarımızın azad olun¬ması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasını qoydu, həm ölkə daxilin-də, həm də beynəlxalq miqyasda ardıcıl iş¬lərə başlanıldı.

Şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

O, özündən sonra Azər¬baycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq lider – şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizin ən böyük xidmətlərin¬dən birini göstərdi. Ulu öndərin inamı, xalqın böyük etimadı özünü tam doğrultdu. İlham Əliyev Prezident seçildik¬dən sonra ölkəmizin inkişafında yeni bir mər¬hələnin əsası qoyuldu. Prezident İlham Əliyevin ölkəmizə rəh¬bərlik etdiyi müddət ərzində bütün sahələrdə möhtəşəm və tarixi əhəmiy¬yətə malik nailiyyətlər əldə olundu. Tarixi paralellər aparsaq, görərik ki, əgər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi müstəqilliyini itirmək təhlükəsindən xilas etmişdisə, Prezident İlham Əliyev ərazi bütöv¬lüyümüzü bərpa etdi. Bunların hər ikisi – müstəqillik və ərazi bü-tövlüyü tarixi xilaskarlıq missiyasının bir-bi¬rini tamamlayan qoşa qanadlarıdır. Çünki dövlətin mövcudluğu baxımından vəhdətdə olmalı bu iki şərtin birini digərsiz təsəvvür etmək mümkün deyil.

Bu gün Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi dərindən öyrənilir, geniş təbliğ olunur. Xüsusilə də, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu prosesdə müstəsna rolunu xüsusi vurğulamaq gərəkdir. Fond ulu öndər Heydər Əliyevin xatirəsinə 2004-cü il 10 may tarixində təsis olunmuşdur.Ulu Öndərin zəngin mənəvi irsini, onun Azərbaycançılıq ideyasını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. Başqa sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli Liderimizin ideyalarına əsaslanır, Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir. Xalqın milli-mənəvi dəyərlərini, tarixi kimliyini, milli özünəməxsusluğunu qoruyub saxlayan, həmçinin gələcək nəsillərə də ötürməyi bacaran ulu öndər Heydər Əliyev daim elmin, təhsilin, milli-mənəvi dəyərlərin böyük hamisi və qoruyucusu olmuşdur.

Heydər Əliyev Fondu məqsədyönlü fəaliyyəti ilə hər zaman bu amala sadiqliyini nümayiş etdirmişdir. Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir.

***Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Xalqın milli mədəniyyəti tarixində müstəsna yer qazanan xalçaçılıq sənəti dünyanın bir sıra ölkələrində yayılmış olsa da, bu sənət növünün beşiyi Azərbaycandır. Ölkəmizdə yüz illərdir xalça toxunsa da, xalçaçıların heç vaxt öz peşə bayramlarını qeyd etdiyi gün olmayıb.***

# Xalçanın beşiyi Azərbaycandır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli Sərəncamı ilə hər il may ayının 5-i Azərbaycan Respublikasında ”Xalçaçı günü” peşə bayramı kimi qeyd edilir.

Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Sasanilər dövründə Azərbaycanda xalça sənəti daha da inkişaf etdi, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxundu. Alban tarixçisi Musa Kalankatlı Azərbaycanda toxunulan ipək parçalar və rəngarəng xalçalar haqqında məlumat verir. Qızıl-gümüş saplarla toxunan və qaş-daşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Burada toxunan və istehsal edilən xalçalar dünyada müqayisə edilməyən nümunə kimi qəbul olunur. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. ”Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir. 2014-cü ildən fəaliyyətə başlayan Xalça Muzeyi Azərbaycan xalçasının dünya miqyasında yetərincə təbliğinə və tanınmasına töhfəsini verir.

## “BU GÜN AZƏRBAYCAN XALÇASI DÜNYADA MƏHZ AZƏRBAYCAN XALÇASI KİMİ TANINIR”

Bu gün paytaxtımızda fəaliyyət göstərən orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev Azərbaycan xalçasını dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirir: ”Mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır”.

Bu gün Azərbaycan qadın ustalarının əlləri ilə yaradılan gözəl xalçalar və xalça məmulatları Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini, habelə, Bakıda Azərbaycan xalçaları muzeyini və Azərbaycan tarixi muzeylərini bəzəyir. Xalça Azərbaycanın çox fərqli milli sərvətidir.

Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Bu cür istehsalımız olan və bütövlükdə dünyamızı özündə əks etdirən xalçamız Azərbaycanın məxsusi dəyərlərini, tarixini özündə cəmləşdirir.

Xalçaçılıq sənəti xalqın milli mədəniyyəti tarixində müstəsna olaraq yer qazanmışdır. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Xalçaçılığın istehsalı, tərtibi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır.

1949-cu ildə aparılan arxeoloji axtarışlar zamanı xalçanın yaşının 2500 il tarixi olduğu qeyd olunur. Məlumdur ki, Azərbaycan xalçaçılıq sənəti qrup və tiplərə bölünür: Təbriz, Qazax, Gəncə və s. Hər bir ərazinin öz milli xüsusiyyətləri əsasında xalça üzərində ornamentlər gözəl bir təsvir yaradır. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq xalçaçılıq məktəbinə bölünür. Burada hər bir ərazinin təbiətinə uyğun olaraq rənglərdən istifadə olunur. Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Bakı məktəbi, Abşeronun kəndlərinin xalçalarına gəlincə isə burada hazırlanan xalçalar daha yumşaqlığı, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Xalçaların bəzəklərində həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir. Bakı qrupuna aid xalçaların rəng koloritində əsasən tünd göy, nadir hallarda isə qırmızı və sarı rənglərdən istifadə edilir. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur.



## BƏDİİ DƏYƏRİNƏ VƏ TƏSVİRİNİN ORİJİNALLIĞINA GÖRƏ BƏNZƏRSİZ QARABAĞ XALÇALARI

Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilir. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Yazılı mənbələrdə ərəb tarixçiləri Əl-Müqəddəsi, Məsudi və b. tərəfindən göstərilir ki, X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. ”Aran xalçası”, ”Bağçadagüllər xalçası”, ”Balıq xalçası”, ”Buynuz xalçası”, ”Bərdə xalçası”, ”Bəhmənli xalçası”, ”Qarabağ xalçası”, ”Qoca xalçası”, ”Qasımuşağı xalçası”, ”Ləmbəran xalçası”, ”Muğan xalçası”, ”Talış xalçası”, ”Lampa xalçası”, ”Malıbəyli xalçası”, ”Xanqərvənd xalçası”, ”Xanlıq xalçası”, ”Xantirmə xalçası”, ”Çələbi xalçası”, ”Şabalıdbuta xalçası”, və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşada cəmlənmişdir. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyaları üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları – ”Bağçadagüllər xalçası”, ”Saxsıdagüllər xalçası”, ”Bulud xalçası” və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng – boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir. Qarabağ xalçalarının motivləri öz bədii dəyərinə və təsvirinin orijinallığına görə bənzərsizdir.

Mənbələrdə göstərilir ki, xalq dastanının qəhrəmanı, Şərqin böyük şairi Firdovsinin ”Şahnamə” poemasında baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusilə diqqəti çəkəndir. Rüstəm və Söhrab xalçalar seriyası miniatür rəngkarlığı üçün ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təsviri ilə diqqətəlayiqdir. Bunlar öz ideya, bədii xüsusiyyətlərinə görə xalq xalçaçılıq sənətinin sözün əsl mənasında tayı-bərabəri olmayan inciləridir.

## XALÇA SƏNƏTİNDƏ YAŞANAN RƏMZLƏR DÜNYASI

Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik. Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalıgəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır. İpək xalçalar, əsasən, mötəbər şəxslər, zadəganlar üçün sifarişlə və ya ixrac məqsədilə toxunurdu. Mənbələrdə göstərilir ki, XVIII əsrin ikinci yarısından etibarən, Qarabağın xalça istehsalı əsasən Şuşa şəhərində mərkəzləşir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə Şuşa XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən ”Ləmpə”, ”Qoca”, ”Bulud” xalçaları və ”Dəst xalıgəbə” kimi xalça dəstləri burada toxunub. Qarabağın əksər məntəqələrində, o cümlədən Şuşa şəhərində toxunan xalçalar əmtəə xarakterli olub Rusiya, Avropa, Asiya ölkələrinə ixrac olunmuşdur. Statistik məlumatlara görə, 1885–1887-ci illərdə Şuşanın xalça istehsalından gəliri 30 min rubl olmuşsa, 1890-cı illərdə bu gəlir artıq 200 min rubla çatmışdır.

Qarabağ xalçaçılıq məktəbinə məxsus ”Əjdaha xalçası” Viktoriya və Albert muzeyində saxlanılır. Xalça ”Balıq” bu xalça Qarabağ tipinin ən geniş yayılan xalçalarından biridir. Ölkəmizin şimalında ”Balıq”, İran Azərbaycanında isə ”Moxi” adı ilə tanınır. ”Balıq” xalçası Qarabağın bütün xalçatoxuma məntəqələrində istehsal olunmasına baxmayaraq, onun əsas istehsal mərkəzi Bərdə şəhəri hesab olunurdu. XVIII əsrin ikinci yarısından isə ”Balıq” xalçası Şuşa şəhərində də istehsal olunurdu.

Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Qəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır. Bu sənətin dünya mədəni irsində – YUNESKO-nun şah əsərləri sırasına daxil edilməsi Azərbaycan xalçasının bir uğuru, nailiyyəti kimi əks-səda doğurmuş oldu.

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil

*Gündəlik həyatın hər sahəsində yüksək səslə danışan insanlara rast gəlmək mümkündür. Bəs, bu nədən qaynaqlanır? Mədəniyyətsizlikdən, yoxsa hər hansı bir psixoloji problemdən yaranan haldır?*

# Uca səslə danışmaq: MƏDƏNİYYƏT, YOXSA MƏDƏNİYYƏTSİZLİK?



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Türk mütəxəssislərin bir qismi söyləyir ki, səs tonu yüksək olan insanlar şiddətə meyilli olur. Aparılan araşdırmalara görə, səs tonu ünsiyyətdə yüzdə 30 təsirlidir. Səs tonu yüksək olan insanların daha aqressiv rəftar nümayiş etdirdiyini ifadə edən mütəxəssislər, əgər şəxs idarə oluna bilmirsə və ətrafındakılara zərər verirsə, mütləq məsləhət, lazım gələrsə psixoloq dəstəyi alması lazım olduğunu bildirirlər.

Düşünmək və düşündüklərini ifadə etmək insanı digər canlılardan fərqləndirən əsas xüsusiyyətdir. Bəzi insanlar fikirlərini səhv ifadə etdikdə səs tonunu yüksəldir. Bir sözlə, insan özünü ifadə etmək üçün müxtəlif üsullara əl atır. Bəzən insanlar effektiv ünsiyyət qurmağı bilmirlər və bunu sosial mühitdə öyrənməklə insanlar üzərində güc qazana və səs tonunu yüksəltməklə onlara hakim ola biləcəklərini düşünərək yüksəkdən danışırlar.





Nitq insanlar arasında ünsiyyət və qarşılıqlı əlaqəni təmin edən ən kəskin qabiliyyətdir. Ən təsirli formadır. İnsanlar hiss, düşüncə, istək və gözləntilərini danışaraq ifadə edir. Danışarkən səsinin tembrindən də faydalanması çox təbiidir. İstifadə olunan dil və üslub ağılın fəaliyyətini göstərməklə yanaşı, ünsiyyət keyfiyyətini də ortaya qoyur.

Ünsiyyətin əsas məqsədi qəbul etmək və başa düşülmək istəyidir. Səsinizi yüksəltmək bir-birinizi daha yaxşı başa düşmək və ya daha başa düşülən olmaq, yoxsa daha dominant olmaq üçün istifadə olunan bir üsuldur? Səs yüksəldikcə insan daha başa düşüləndir, yoxsa daha doğru?

Ünsiyyət səylərimizdə sözlər səs tonumuzdan daha az yer tutur. Başqa sözlə desək, səs tonundan səmərəli və düzgün istifadə etmək, başa düşməyi asanlaşdıracaq. Yüksək səs tonu qıcıqlandırır. Anlaşılmaq cəhdi alt-üst olur, çaşqınlığa səbəb olur. Bu da insanlar arasında gərginliyi artırır, məsafə yaradır. Qışqırmaq və ya döyüşmək kimi qəzəbli tonda danışmaq doğru deyil.



Başqalarını əzmək üçün qışqıran və qışqırmaqla qarşı tərəfi razı sala biləcəklərini düşünənlər də var. Qışqırmaq qəzəbini atmağın, özünüzü rahatlaşdırmağın, sıxıntı və kədərinizdən qurtulmağın ən asan, lakin ən zərərli yoludur. Səs tonu ilə hücum edən insanlar tez-tez qəzəbli, nəzarətçi, aqressiv və düşmənçiliyə sahib olurlar.

Elmi araşdırmalar göstərir ki, yüksək səslə danışmağın mənfi təsiri çoxdur. Davamlı olaraq yüksək səslə danışan birinin ətrafında olmaq ilk növbədə əsəbilik və gərginliyə, hətta sonda psixoloji pozğunluqlara səbəb ola bilər. Səsin tonu artdıqca diskomfort da artır, diqqət dağılır.

Qışqırmadan danışmaq fəzilətdir. Ən əsası, qarşı tərəfin yaşından asılı olmayaraq, ən böyük hörmət əlamətidir. Səsin yumşalması sözləri də yumşaltdığı üçün qulağa xoş gələr, ürəyə xitab edər. Səsin tonu nə qədər aşağı olarsa, anlama dərəcəsi bir o qədər yüksək olar.

Səs tonunun danışığa uyğun tənzimlənməsi və müəyyən desibeldən çox olmaması vacibdir. İkitərəfli və ya qrup dialoqlarında digər şəxsin eşitmə diapazonunda ən aşağı səslə danışmaq ən uyğundur. Səs insanın ən dərin hisslərini və düşüncələrini çatdıran kanaldır. Səs tonu danışıq sözünə məna qatır, emosionallıq verir və təsirini artırır.

Nə qədər yaxşı başa düşülmək istəsək, bir o qədər sadə və yumşaq səs tonu ilə başlaya bilməliyik. Səsi aşağı salmaq, qışqırmamaq nitq qaydasıdır, ədəb qaydasıdır. Ünsiyyət prosesində nəzakətli və mülayim üslubu mənimsəmək, ağıllı danışmaq, yaxşı sözlər deyə bilmək hər zaman ən doğru yoldur.

Səsimizi eşitdirməkdənsə, ürəyimizin, səsini eşitdirək. Çox qışqırmaq əvəzinə bir-birimizi daha çox sevək. Gəlin bir-birimizlə sevgi bağı, sevgi dili yaradaq. Kin və nifrət sözləri yerinə sevgi sözlərindən istifadə edək. Çünki səs yüksəldikcə ürəklər bir-birindən uzaqlaşır, sevgi azalır".

Elə adamlar var ki, onların normal danışıq səsi sizin qışqırmağınıza bərabərdir. Bəs, bu şəxslər hansı xüsusiyyətlərə malikdir?

- Bir çox hallarda işdə, avtobusda, insan içində mahnı oxuyarlar
- İçlərindən danışa bilmirlər, ağlına gələni kinoda, teatrda yanındakı adama danışırlar.
- Nə qədər çalışsalar da, duyğularını gizlədə, sakit ifadə edə bilmirlər.
- Min dəfə düşünmək və bir şey söyləmək heç vaxt onlar üçün deyil. Danışmazdan əvvəl düşünmək vərdişləri yoxdur.
- Onlar ideyalarını gözləmədən həyata keçirirlər.
- Çətin vəziyyətlərin öhdəsindən gəlməkdə mahirdirlər
- Pıçıldamağın ancaq hərfi mənasını bilirlər
- Bu xüsusiyyətlərinə görə problemə düşməkdə çox bacarıqlıdırlar.
- Tanımadıqları biri ilə saniyələr içində dostluq edə bilirlər və yaxşı sosial bacarıqlara malikdirlər.
- İki insanı barışdırmaq və birləşdirmək məsələsində onlardan yaxşısını tapa bilməzsiniz.
- Evdə və işdə bütün işlərini qışqıraraq görməyə meyllidir.
- Qonşuları evin tavanına və divarlarına vurmaqdan yorulur.
- Balkonda oturub söhbət edərkən bütün məhəllə deyilənlərə qulaq asır.
- Onlar ictimai nəqliyyatda sürücüyə "orta qapı" deyə qışqıranlardandır

**Ayşən Vəli**

ARAŞDIRMA

# Müstəqil Azərbaycanda mətbuat və söz azadlığı

## Prezident İlham Əliyev: "Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir"

*“Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir… Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Almaniyada keçirilən mətbuat konfransında Ona ünvanlanan sualı cavablandırarkən bildirib.Azərbaycan müstəqil dövlət olaraq insan hüquqlarının qorunmasına öz töhfəsini verir.*

Hər bir ölkədə mətbuat və söz azadlığının olması və onun inkişafı respublikanın demokratikləşməsi prosesinin vacib amillərindəndir.Zamanın tələbinə və çağırışlarına uyğun olaraq Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik baza-



sının demokratikləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirib və bu davamlı xarakter alıb. ”Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir", - deyə dövlətimizin başçısı çıxışlarının birində diqqətə çəkmişdir. Azərbaycan dövləti azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atmaqda davam edir.

### DEMOKRATİK CƏMİYYƏTİN MEYAR VƏ ÖLÇÜSÜ

Dünən 3 May - Ümumdünya Mətbuat və Söz Azadlığı Gününü qeyd etdik. 1993-cü il dekabr ayının 20-də BMT Baş Məclisinin qərarı ilə may ayının 3-ü Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü elan olunmuşdur. Ümumdünya Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına önəm verildiyi ölkələrdə, o cümlədən, Azərbaycanda da qeyd olunur. Təbii ki, söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsüdür. Bu baxımdan ölkəmizdə bu dəyərlərin mövcudluğu Azərbaycan mətbuatın inkişafında önəmli rol oynayır.

Uzun bir yol keçən milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib və bu davamlıdır. Belə ki, dövlətimizin inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmaqla yanaşı, rəqabət qabiliyyətini daha da yüksəltmişdir. Müstəqillik dövründə milli mətbuatımızın inkişafı, ölkəmizdə söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Milli mətbuata olan münasibət və qayğısı nəticəsində azad və demokratik mətbuatımız cəmiyyətin operativ və obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Təbii ki, Ulu Öndər Heydər Əliyevin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın inkişafında mühüm amillərdir. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli ”Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

### YENİ DƏYƏRLƏRLƏ ZƏNGİNLƏŞƏN MEDİA SİYASƏTİ

Uğurlu bir inkişaf yolu keçən milli mətbuatımıza dövlətimizin diqqəti davamlıdır. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi media siyasətini yeni dəyərlərlə zənginləşib. Mətbuatımızın son illəri əhatə edən qısa bir tarixinə nəzər salsaq bunu görmüş olarıq. Belə ki, dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində ”Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında”, ”Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında”, habelə, ”Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında” sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli ”Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında”, eləcə də, ”Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli ”Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında” Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında




nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrıldı. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər Sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrıldı. 2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı.

### MƏTBUATA DÖVLƏTİN DİQQƏT VƏ QAYĞISI

”Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında” 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının bir nümunəsi idi. Məlum Sərəncamla Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün dövlət büdcəsindən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılmışdı. Milli mətbuatımıza göstərilən diqqətin bariz nümunəsidir ki, dövlət başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə ”Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında” 22 iyul 2019-cu il tarixli Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrıldı. Qeyd edək ki, dövlətimiz tərəfindən qəzetlərə ayrılan diqqət və qayğı sistemli və davalı xarakter daşıyır. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında ”Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradıldı. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti milli mətbuatımıza daim diqqət göstərir və onun inkişafına yönələn tədbirlər həyata keçirilir.

### “JURNALİSTLƏR BƏLKƏ DƏ ÖZLƏRİ DƏ BİLMƏDƏN MƏNİM KÖMƏKÇİLƏRİMDİR”

Mətbuata ayrılan bu və digər qayğı, diqqət onun üzərinə məsuliyyət qoyur. Obyektivlik qorunmalı, şəffaflıq təmin edilməlidir. Cəmiyyətdəki uğur və nöqsanlar mətbuat vasitəsi ilə ictimaiyyətə təqdim olunmalıdır. Cəmiyyəti narahat edən problemlərin üzə çıxarılmasında mətbuat işçilərinin rolu əvəzsizdir. ”Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm. Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni, əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz.”

Müasir dövrdə Azərbaycanda dünya standartlarına uyğun media, elektron və yazılı KİV-lər formalaşmışıb. Müstəqil KİV-lərin sayına görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl mövqelərdən birini tutur.

**Zümrüd BAYRAMOVA**





# Fransanın neokolonialist siyasəti - əsrimizin üz qarası!

*Assimilyasiya siyasəti fransız müstəmləkələrində insan hüquqlarının kobud şəkildə pozulmasına, bu ərazilərdə yerli xalqların kimliyinin silinməsinə, ailələrin dağılmasına, eləcə də bir neçə nəslin sabitliyinin pozulmasına səbəb olub.*












Yüz illərdir ki, Fransanın müstəmləkəçilik siyasəti əhalinin assimilyasiyasına və xalqların mədəniyyətinin inkar edilməsinə əsaslanıb. Bu iyrənc siyasət yerli əhalini öz mədəniyyətindən, adət-ənənələrindən, dilindən məhrum etmək, beləliklə onları köklərindən, tarixlərindən uzaqlaşdırmaq məqsədi daşıyır. Yelisey sarayının uzun illərdən bəri davam edən assimilyasiya siyasəti Afrika, Məğrib, Asiya, Karib dənizi və Cənubi Amerikadan gələnlər üçün tamamilə fərqli xarakter daşıyıb. Çünki onlar ağdərili və xristian deyillər. Fransa sivil irq və aşağı irq məfhumlarını fərqləndirərək insanları alçaldan siyasət yürüdür. Assimilyasiya siyasəti fransız müstəmləkələrinin yerli əhalisinə də tətbiq edilərək, onları Fransa vətəndaşlarına çevirmək məqsədi daşıyırdı.

Bu, bir gerçəklikdir ki, assimilyasiya çox real siyasi, iqtisadi və strateji maraqlara xidmət edən ideoloji təsir vasitəsidir. Əslində cağdaş dünyamızda bütün tərəqqipərvər qüvvələr insanlıq əleyhinə olan bu ideologiyaya qarşı qətiyyətlə mübarizə aparmalıdırlar. Ən əsası isə odur ki, bu mənfur ideologiyadan əzab çəkmiş xalqlar və ölkələr bəşər cəmiyyətinin dünyaya və gələcəyə sahib olmaqla bağlı baxışlarını köklü şəkildə dəyişməsi üçün mübarizənin önündə olmalıdırlar.

Ən acınacaqlısı odur ki, assimilyasiya siyasəti fransız müstəmləkələrində insan hüquqlarının kobud şəkildə pozulmasına, bu ərazilərdə yerli xalqların kimliyinin silinməsinə, həmin dövrdə ailələrin dağılmasına, eləcə də bir neçə nəslin sabitliyinin pozulmasına səbəb olub. Fransanın istismarçı neokolonialist siyasəti nəticəsində müstəmləkə xalqları sözün əsl mənasında assimilyasiya adı altında əcdadlarından və ənənələrindən uzaqlaşdırılıb.

Təqdirəlayiq haldır ki, Azərbaycan Fransanın müstəmləkəçi siyasətinə qarşı əzmlə mübarizə aparır. Bu məqsədlə Bakı Təşəbbüs Qrupu yaradılıb. Prezident İlham Əliyev mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında bildirib ki, biz imkan verə bilmərik ki, XXI əsrdə Avropanın bəzi ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın: "Biz səsimizi ucaltdıqda - Qoşulmama Hərəkatına sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, hansısa ölkəyə qarşı idik. Biz, sadəcə ədalətə, beynəlxalq hüquqa bağlı idik. Dünya iyrənc neokolonializm praktikasına göz yummalı deyil. Bu, assimilyasiyadan xəbər verir, bu məcburi assimilyasiyadır. Bu, Fransanın 10-dan artıq dənizaşırı ərazisində baş verir. Buna son qoyulmalıdır".

Aprelin 18-də Milli Məclisdə "Yeni Kaledoniya: tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusuna həsr edilmiş elmi konfransda içtirak edən Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naisselin Fransanın yerli kanak xalqına qarşı yürütdüyü imperialist siyasətindən, hüquqlarının pozulmasından bəhs edib. Omayra Naisselin vurğulayıb ki, Fransa Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, konstitusiyaya, seçki qanunvericiliyinə müdaxilə edərək yerli xalqın hüquqlarını məhdudlaşdırmağa çalışır.

Aprelin 30-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT-nin Vyana ofisində "Müstəmləkəçilikdən qurtuluş: assimilyasiyanın nəticələri və onun insan hüquqlarının həyata keçirilməsinə təsiri" mövzusunda keçirilən konfransda müstəmləkəçiliyin mənfi təsirləri, yerli icmalar üzərində assimilyasiya siyasəti məsələləri müzakirə olunub. Fransanın hələ də müstəmləkə altında saxladığı dənizaşırı ərazilərin - Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinika, Qvadelupa, Vallis və Futuna, Korsika, Qəmər Adaları İttifaqı, Haiti kimi ölkələrin milli hərəkatlarının rəhbərləri, müstəqillik tərəfdarları öz çıxışlarında bildiriblər ki, Fransanın müstəmləkəçilik siyasəti əhalinin assimilyasiyasına və xalqların mədəniyyətinin inkar edilməsinə əsaslanır: "Fransa istəyir ki, biz - müstəmləkə xalqları "əsl fransız xalqı" olaq və bizə mənşəyimizi xatırladan hər şeyi-ana dilimizi, yurdumuza bağlılığımızı, ata-baba irsimiz və s. inkar edək".

Maraqlı odur ki, milli azlıqların dil məsələləri üzrə fransız tədqiqatçı Rolan Lafitte çıxışında ölkəsində irqçilik probleminin getdikcə artmasından, polisin ərəblər və afrikalılara qarşı haqsızlıqlarından, onların polis tərəfindən əsassız olaraq yoxlamalara məruz qalmalarından söz açıb, bunun hüquqşünaslar tərəfindən sistemli irqçilik adlandırıldığını xüsusilə qabardıb. Fransız jurnalist Jan-Mişel Brən isə ölkəsinin müstəmləkəçilik siyasətindən, müstəmləkəçilik illərində Əlcəzairdə törədilmiş vəhşiliklərdən, assimilyasiyanın əsl

Nəhayət, bu gün bütün dünyaya özünü sülh, demokratiya, insan haqları uğrunda mübariz kimi sırımaq üçün bütün çirkin vasitələrdən istifadə edən Fransa yüz illərdən bəri müstəmləkələrdə törətdiyi cinayətlərə görə üzr istəməli, istismarçı nekolonialist siyasətinə son qoymalıdır.

***Zahid Rza***

# Dünyaya əyani nümunə

***Xəbər verdiyimiz kimi, mayın 1-də Bakı Konqres Mərkəzində “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 110 ölkədən 700-dən çox nümayəndənin iştirak etdiyi tədbirdə iştirak edib və bu mövzuda çıxış edib.***

### Prezident: “Multikulturalizm məhz bizim həyat tərzimizdir”

Dövlət başçısı qeyd edib ki, əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub: “Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, “Bakı Prosesi”ni başlamalı idik və bildiyiniz kimi, 3 ildən sonra “Bakı Prosesi” rəsmən təsdiqləndi.

Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Forumuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır. Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik. Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam edəcəyik. Əminəm ki, bununla hər bir ölkə uğur qazana bilər. Çünki əgər siz birincisi, bu məsələləri daxildən nəzərdən keçirsəniz, elə bir mühit yaranar ki, bütün etnik qrupların, dinlərin nümayəndələri özlərini ləyaqətli, təhlükəsiz şəraitdə hiss edərlər və onlara münasibət ədalətli olar. Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər”.

Bəli, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün dünyada çoxmillətli, çoxkonfessiyalı, çoxmədəniyyətli ölkə imici qazanmış Azərbaycan bəşər sivilizasiyasının ən yüksək dəyərlərinin vahid ideologiyada cəmləşdiyi məkan kimi tanınır. Belə zəngin fərqliliyə malik cəmiyyət arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürməsi bizim tarixi ənənəmizdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün hər cür şəraitin təmin edilməsi Azərbaycanı dünya ölkələri üçün multikultural cəmiyyətin əyani nümunəsinə çevirib.

### Multikulturalizm xalqları ayırmır, əksinə, birləşdirir

Tarixdən məlum olduğu kimi, ta qədimlərdən indiyədək Azərbaycanda dini və etnik tolerantlıq hökm sürür. Odlar Yurdunda çoxsaylı etnik qrupların, dini konfessiyaların nümayəndələri mehriban qonşuluq şəraitində öz milli kultural ənənələrini saxlamaqla, qaynayıb-qarışmış ortaq dəyərlər



əsasında yaşayırlar. Dini, milli, sosial azadlıqlar, tolerant mühitin təmin edilməsi milli-mənəvi dəyərlərin qorunması kontekstində vətəndaş cəmiyyəti üçün lazım olan bütün vacib normalar ölkəmizdə mövcuddur.

Son illərdə dünyada baş verən proseslər mədəniyyətlərin birgəyaşayışı və inkişafının nə qədər mühüm olduğunu ortaya qoyub. Bəşəriyyət üçün belə bir nümunələrdən biri də Azərbaycandır.

Multikulturalizmin ən yaxşı modeli olan Azərbaycanın tarixi ənənələri ilə yanaşı, davamlı inkişaf tələbatları ilə elmi cəhətdən əsaslandırılıb. Azərbaycanın siyasi, iqtisadi inkişafı ilə yanaşı, mədəni inkişafı, fərqli din mənsublarının burada azad şəkildə yaşaması, onların seçiminə və hüquqlarına hörmətlə yanaşılması dövlətin siyasətinin əsas müddəalarıdır.

Azərbaycan bu dəyərlər sistemi- yəni, eyni bir ölkədə yaşayan müxtəlif xalqların mədəni hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə uzun illərdir bəşəriyyətə nümunə göstərməkdədir. Ölkəmizin milli mədəniyyətinə uğurla inteqrasiya edən müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər.

Çoxmillətli respublika olan Azərbaycanın milli siyasətində bütün etnik qrupların mədəni dəyərlərinin qorunması üçün hər cür şəraitin təmin edilməsi daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev də multikultural dəyərləri bütün xalqları birləşdirən faktor kimi qiymətləndirib: ”Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir”.



### Azərbaycan: dövlət-cəmiyyət münasibətlərinin uğurlu həll modeli

Dünyanın müxtəlif bölgələrində dini və milli zəmində baş verən qarşıdurma və münaqişələr, dini konfensiyaların, təriqətlərin, institutların cəmiyyətin siyasi həyatına, ayrı-ayrı dövlətlərin idarəçilik sistemine təsir göstərmək cəhdləri bu gün də din-dövlət münasibətlərini aktual saxlayır.

Müasir dünyaya nəzər yetirsək, milli və mənəvi dəyərlərin qarşılıqlı inteqrasiyası əvəzinə, onların süni yaradılmış qarşıdurması çoxlu problemlər yaradıb. Təəssüf ki, XXI əsrdə də inkişaf etmiş dünya din və məzhəb qarşıdurmalarının, etnik toqquşmaların, faşizm meyllərinin şahididir. Yaxın və Orta Şərqdə dinin siyasiləşməsi prosesləri, konfessional təəssübkeşlik, etnik qarşıdurma və terror aktları, müxtəlif etnik qrupların və fərqli din mənsublarının birgə yaşadığı ölkələrdə bəzi Qərb dairələri tərəfindən qızışdırılan vətəndaş müharibələri davamlı xarakter alıb.

Azərbaycanda da hələ ötən əsrin 90-cı illərindən başlayaraq dini və etnik qrupları qıcıqlandırmaqla ölkədə dini qarşıdurma yaratmağa çoxsaylı cəhdlər edilib, amma bu məsələlər dövlət və cəmiyyətin birliyi fonunda ümummilli lider Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində yüksək ustalıqla yoluna qoyulub.

Heydər Əliyev Azərbaycanda dünyəvi dövlət quruculuğunun davam etdiriləcəyini, eyni zamanda dövlətin milli-mənəvi dəyərlərinin qorunmasına böyük əhəmiyyət verəcəyini bir konsepsiya kimi qarşıya qoymuşdu: “Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik”. Bu kiçik fraza dövlətimizin din siyasətini tam şəkildə özündə ehtiva edir.

Xalqımız da qədimdən gələn ənənələrini yaşatmaqla ölkədə ictimai-siyasi sabitliyin qorunmasında, cəmiyyətin bütün icmalarının sülh və mehribanlıq şəraitində yaşaması istiqamətində dövlətin siyasətinə dəstək verir.

Beləliklə, dünyadakı vəziyyəti nəzərdən keçirdikdə aydın olur ki, ölkəmiz özünün dövlət-din, cəmiyyət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır.

### Monoetnik və monokultural cəmiyyətlərin problemləri

Milli və dini tolerantlıq mədəniyyətlərin problemsiz dialoqunun zəruri alətidir. Hazırda Avropa və bəzi Qərb dövlətləri milli və dini müxtəlifliyi idarə etməyin kifayət qədər mürəkkəb kulturoloji vəzifə olmasını anlayaraq ondan imtina ediblər. Halbuki, multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Monoetnik və monokultural cəmiyyətlərin, dövlətlərin bəzilərində bəşəri dəyərlərə zidd fikirlər formalaşır və qonşularla münasibətlər məhz bu prizmadan baxılır. Bir sözlə bu naqislik dövlət siyasətinə sirayət edir.

Buna ən pis numunə kimi faşizm meyillərinin gücləndiyi, bütün digər xalqların ölkədən qovulduğu Ermənistanı göstərmək olar. Əhalinin 99 faizdən çoxu ermənilərdən ibarət olan, heç bir digər etnik, dini, mədəni icmanın mövcud olmadığı Ermənistan həm daxili, həm də xarici siyasətində neo-faşizm ideologiyasına əsaslanır. Qonşuların torpaqlarını zor gücünə ələ keçirmək, işğal etdiyi ərazilərdəki yerli xalqları soyqırımlarla məhv etmək, hər cür terror aktları təşkil etməklə dünyaya multikulturalizmin və tolerantlığın olmadığı, nasizmin ölkənin nəyə çevriləcəyini bir daha əyani göstərdi (hərçənd, dünya bunu ötən əsrin 30-40-cı illərində faşist Almaniyasının timsalında görmüşdü). Bu, siyasi ədəbiyyatda artıq ermənizm xəstəliyi kimi qəbul olunub və xəstə millətçiliyə, qonşularla düşmənçiliyə, təcavüzkarlığa, terrora əsaslanır.



Cəbhənin əks tərəfində isə öz numunəvi dövlət və cəmiyyət modeli ilə tamam fərqli ölkə var. Azərbaycan dövləti hər zaman etnik, dini, sosial, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün icmaların milli-mənəvi dəyərlərinə böyük hörmət göstərib və ölkəmizin dünyada nümunəvi cəmiyyət imicini qazanmasında əsas rol oynayıb. Burda əsas məqam ondan ibarətdir ki, qloballaşma və inteqrasiya şəraitində milli-mədəni dəyərlərin qorunması, bəşəri dəyərlərin inkar edilməməsi şəraitində yaşayır və hətta bu dəyərlər bir arada daha yaxşı nəticə verir.

Qərbdir ki, məhz bu dəyərləri müdafiə etdiyini sözdə deyən Qərb ölkələri əməldə tam olaraq bunun əksini həyata keçirən dövləti müdafiə edirlər. Burada paradoksun səbəbini onların liderlərindən soruşmaq maraqlı olardı.

### Azərbaycan dünyaya bəşəri cəmiyyət modeli təqdim edir

Hazırda qloballaşma və inteqrasiya adı altında bəzi qlobal dairələr əslində assimilyasiya siyasəti yeritməyə cəhd edirlər. Onların sözdə dediyi dəyərlərə, əməldə Azərbaycan sahibdir. Nəticə olaraq deyə bilərik ki, əgər bizim bəzi ölkələrdən öyrənəcəyimiz nələrsə varsa, onların da bizdən öyrənəcəyi nələrsə var. Həqiqi inteqrasiya budur.

Qloballama isə yalnız bütün cəmiyyətlər tərəfindən qəbul edilən bəşəri dəyərlər üzərində qurulmalıdır, hansısa cəmiyyətin öz dəyərlərini bütün dünyaya qəbul etdirilməsi üzərində yox. Dünyanın gözəlliyi zənginlikdə, fərqlilikdədir. Bütün insanların eyni mədəni, dini, siyasi görünüşə malik olması anormallıq olardı- bu artıq insan cəmiyyəti deyil, robot cəmiyyətidir.

Bəli, Azərbaycan öz qədim tarixi ənənələri, möhtəşəm mədəni zənginliyi, etnik və dini icmaların vahid ideologiyada qovuşduğu zəmin üzərində öz inkişafını davam etdirir və dövlətimiz dünyaya milli mədəniyyətini müasir elmitexniki inkişafı bir arada tutan bir Azərbaycan modeli təqdim edir. Azərbaycan bu gün dünyaya belə numunəni göstərə bilən cəmi bir neçə ölkədən biridir. Dünyanın bizdən öyrənəcəyi çox şey var.

Dünyada davam edən etnik və dini münaqişələrin fonunda qədim Odlar Yurdu bütün etnik və dini qrupların eyni hüquqlara malik olduğu, dinc yanaşı yaşadığı bir multikultural tolerantlıq adasıdır. Dünyaya bu sahədə əyani nümunə olan əlvan ada...

***Elçin Bayramlı***

# “Gürcüstan və Ukrayna qəsdən Rusiyaya qarşı qoyulur” - Bidzina İvanişvili

***Gürcüstanın hakim “Gürcü arzusu – Demokratik Gürcüstan” partiyasının təsisçisi və onun fəxri sədri – respublikanın keçmiş baş naziri, iş adamı Bidzina İvanişvili “qlobal müharibə tərəfini” Gürcüstan və Ukraynanı qəsdən Rusiyaya qarşı qoymaqda ittiham edib. Ötən gün baş tutan aksiyanı hakim partiya xarici agentlər haqqında qanunun qəbuluna etirazlara cavab olaraq təşkil edib.***










İvanişvili səhnəyə çıxaraq, onun fikrincə, ABŞ və Avropa İttifaqının hərəkətlərinə təsir göstərən, onları Gürcüstan və Ukraynadan Rusiyaya qarşı “top yemi” kimi istifadə etməyə təşviq edən “qlobal müharibə partiyası”ndan danışıb.

Siyasətçi xatırladıb ki, 2008-ci ildə Buxarestdə keçirilən NATO sammitində Gürcüstan və Ukraynaya alyansa qoşulmaq vədləri verilib, lakin növbəti on il yarım üçün “layihədə dayanmaq” qalıb. “Bütün bu cür qərarlar NATO və Avropa İttifaqına həlledici təsirə malik olan və həm Gürcüstan, həm də Ukraynanın top yeminə dəyər olduğu qlobal müharibə tərəfi tərəfindən verilir. Onlar əvvəlcə 2008-ci ildə Gürcüstanı Rusiyaya qarşı qoydular, 2014 və 2022-ci illərdə isə Ukraynanı daha da çətin vəziyyətə saldılar”, - İvanişvili mitinq iştirakçılarına müraciət edib.

Onun sözlərinə görə, “qlobal müharibə tərəfi” Gürcüstanı “ikinci cəbhəyə” çevirə bilmədiyi üçün ona qarşı aqressivdir. “Gürcü Arzusu”nun yaradıcısı vurğulayıb ki, bu cür cəhdlər məhz xaricdən maliyyələşən və “Gürcüstanı suverenlikdən məhrum etmək” məqsədi daşıyan qeyri-hökumət təşkilatları (QHT) vasitəsilə həyata keçirilib. İvanişvili izah edib ki, xarici agentlər haqqında qanun onların fəaliyyətini dayandırmağa hesablanıb.

“Bizim tez-tez qınadığımız və bizə kömək etdiyi hesab edilən QHT-lərin maliyyələşdirilməsi faktiki olaraq, demək olar ki, bütünlüklə agentlərin gücləndirilməsinə və onların hakimiyyətə gətirilməsinə gedir”, - İvanişvili iddia edir.

Qeyd edək ki, Bidzina İvanişvili Gürcüstan əsilli, ictimai-siyasi xadimdir və Forbes-in məlumatına görə, 2024-cü ilə kimi dünyanın ən varlı adamları siyahısında 600-cü yerdədir. 2012-ci ilin oktyabrında onun rəhbərlik etdiyi “Gürcü Arzusu - Demokratik Gürcüstan” seçki bloku respublika parlamentində yerlərin yarıdan çoxunu əldə edib. Tezliklə İvanişvili bir ildən bir qədər çox vaxt keçirdiyi ölkənin baş naziri postunu tutub.

İndi biznesmenin yaratdığı partiya Gürcüstanda hakim partiyadır, onun tərkibinə baş nazir daxildir, respublika prezidenti Salome Zurabişvili də onun üzvü olub. 2021-ci ildə İvanişvili siyasətdən getdiyini açıqlasa da, 2023-cü ilin sonunda 26 oktyabr 2024-cü ildə keçiriləcək parlament seçkilərində partiyasının fəxri nümayəndəsi kimi siyasi səhnəyə qayıdacağını açıqlayıb. Bir çox KİV biznesmeni Gürcüstanın “kölgə lideri” adlandırır.

İvanişvilinin mitinqdə verdiyi bəyanatlar Gürcüstan müxalifətinin nümayəndələri tərəfindən tənqid edilib. Xüsusilə, müxalifət partiyası olan “Lelo”nun lideri və Gürcüstanın ən böyük TBC Bankının təsisçisi Mamuka Xazaradze bildirib ki, İvanişvili “qlobal müharibə tərəfi” dedikdə Avropa İttifaqını nəzərdə tutur.

Xazaradzenin partiya həmkarı Badri Caparidzenin sözlərinə görə, “İvanişvili Gürcüstanda antimilli, anti-Avropa və antiamerikan siyasətin yaradıcısı olduğunu açıq şəkildə təsdiqləyib”. Axali partiyasının lideri Nika Qvaramiya İvanişvilinin müraciətini “son dərəcə təcrid və aqressiv repressiv”, “nifrət və düşmənçilik səpmək” kimi qiymətləndirib. ”Bu şəxs Gürcüstan üçün çox təhlükəlidir və bu il ona [seçkilərdə] son qoymaq lazımdır”, - Qvaramiya deyib.

Aprelin 28-də Tbilisidə “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbuluna qarşı kütləvi etiraz aksiyası keçirilib. Onun iştirakçıları Gürcüstanın, Avropa İttifaqının bayraqları və bannerlərlə küçələrə çıxıblar. Bir neçə min nümayişçi Birinci Respublika Meydanından parlamentə doğru yürüş təşkil edib, onların binasını dairəvi şəkildə dolaşıblar.

Nümayişçilər “Rusiya qanunlarına yox”, “Avropaya bəli”, “Ayıb olsun” və s. şüarlar səsləndiriblər. Parlament binasında oxşar şüarlarla proyeksiya nümayiş etdirilib. Etirazçılar hakim partiyanın mitinqi üçün qurulmuş səhnəyə qalxmağa cəhd etdikdən sonra polislə toqquşub. Təhlükəsizlik qüvvələri gözyaşardıcı qazdan istifadə edib, sonra etirazçıların bir qismini saxlamağa başlayıb.

“Xarici agentlik” qanun layihəsi 2024-cü ilin aprelində ikinci cəhdlə Gürcüstan parlamentinə təqdim edilib. Onun ilk variantı 2023-cü il martın 7-də birinci oxunuşda qəbul edilib. Müəlliflər “Gürcü arzusu”ndan uzaqlaşaraq ona ruhən yaxın olan “Xalqın Gücü” müxalifət hərəkatı yaradan deputatlar idi.

Qanun layihəsini tənqid edənlər iddia edirlər ki, Tbilisi Moskvadan nümunə götürür və 2023-cü ilin dekabrında Aİ-yə namizəd statusu almış Gürcüstan “Rusiyaya doğru sürüklənir”. Qanunun parlamentdə müzakirəsi Gürcüstan paytaxtının mərkəzində kütləvi etirazlara səbəb olub.

***V.VƏLİ***





# Leonid Kalaşnikov: “Rusiya və Azərbaycanın məqsədi müharibə deyil, sülhdür”

***Rusiya Dövlət Dumasının MDB İşləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov Rusiya nümayəndə heyətinin tərkibində Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edib. “Moskva-Baku” portalına müsahibəsində komitə rəhbəri Azərbaycan prezidenti ilə görüşün yekunlarından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Leonid İvanoviç, dünən Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçevlə birlikdə Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycan Prezidenti tərəfindən qəbul olundunuz. Görüşdə hansı mövzular müzakirə olunub?**

- Çox yaxşı görüş oldu. Həmişə olduğu kimi. Danışıqlara təxminən yarım saat vaxt ayrılacağı anlaşılırdı, amma sonda bir saat oldu. İlham Heydəroviçlə görüşlər heç vaxt formal xarakter daşımır. O, həmişə çox səmimi və güvəniləndir. Azərbaycan Prezidenti ilə söhbətdə onun atası Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgini ötən il Dövlət Dumasında keçirtdiyimizi və Vyaçeslav Volodinin belə bir tədbirə necə yüksək qiymət verdiyini xatırlamaq məni çox məmnun etdi.

İlham Heydəroviçin diqqətini ona çəkdim ki, bu gün Rusiyada Sovet respublikalarının görkəmli rəhbərlərini xatırlayanda Heydər Əliyevin və Pyotr Maşerovun adlarını çəkirlər. Niyə? Çünki onlar həmişə öz ölkələrinə- Sovet İttifaqına, milli respublikalarına necə lazımdırsa, öz doğma yurdu kimi yanaşıblar. Xatırladım ki, Mixail Qorbaçov SSRİ-də hakimiyyətə gələndə BAM-ın “heç yerə getməyən” yol olduğu barədə bəyanatlar səslənməyə başladı. Bu, bəziləri üçün həmin ”heç yerə aparan yol”dur ki, nəticədə gələcəyin yoluna çevrildi. Sovet İttifaqının son liderinin qiymətləndirməsi BAM-a görə də yalan çıxdı. Baykal-Amur magistralının tikintisinə cavabdeh olan Heydər Əliyev layihənin davam etdirilməsinin zəruriliyini sübut etmək üçün çox çalışmalı oldu. Və bu gün biz bunun düzgün qərar olduğunu görürük.

Cənab Əliyevin İlham Heydəroviçlə keçdiyi yolu xatırladaraq, biz bu gün münasibətlərimizin qarşısında duran vəzifələrdən, o cümlədən nəqliyyat-logistika layihələrinin, xüsusən də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar kontekstində həyata keçirilməsindən danışdıq. Liderlərimizin bu yaxınlarda Moskvada BAM üzvləri ilə necə görüşdüyü barədə danışdıq. Bu, çox insani isti görüş oldu. Baykal-Amur magistralının tikintisi layihəsinin iştirakçılarının sözləri İlham Heydəroviçin ürəyincə oldu. Rusiya rəhbərliyinin Azərbaycan prezidentinə qarşı çox səmimi və isti münasibəti var. Və o, bunu çox gözəl bilir.

Mən parlamentlərarası qarşılıqlı fəaliyyətimizdən danışdım. İlham Heydəroviçlə Azərbaycanın Avrasiyaya inteqrasiya imkanları-Avrasiya İqtisadi İttifaqında status alması barədə də danışdıq. Bakı bu təklif üzərində düşünür. Bu statusun gətirə biləcəyi üstünlüklərdən danışdıq. Mən keçən həftə Rusiyanın baş naziri Mixail Mişustinin keçirdiyi çoxqütblü dünyada Avrasiya inteqrasiyası üzrə strateji sessiya haqqında danışdım; Avrasiya inteqrasiya prosesinin aralıq nəticələri araşdırılıb. Sessiyada açıqlanan rəqəmlər isə göstərdi ki, Aİİ üzvü olan ölkələr bu inteqrasiyadan ancaq faydalanır. Rusiya öz böyük bazarını iştirakçı dövlətlərin üzünə açıb. Bununla yanaşı, təbii ki, Aİİ-də status alıb-almamaq barədə qərar vermək Azərbaycanın müstəsna hüququdur.

Biz Avropa Şurası Parlament Assambleyası və bu strukturda Azərbaycanla bağlı yaranmış vəziyyətdən danışdıq. Biz əvvəllər də oxşar vəziyyətlə qarşılaşmışıq və bunun necə baş verdiyini təcrübədən bilirik. Və o, tutduğumuz yoldan istifadə etməyi təklif etdi: sadəcə olaraq AŞPA-ya rüsum ödəməmək, vəssalam. Bizim belə bir qərardan sonra xatırlayıram ki, AŞPA dərhal “xırıldadı” və “qaçdı”.

Turizmdən də danışdıq. Xəzər dənizindən də çox danışıldı. Biz razılaşdıq ki, yaxın vaxtlarda Xəzər beşliyi ölkələrinin parlament rəhbərlərinin konfransı keçirilsin. İlham Heydəroviç Xəzər dənizinin sürətlə dayazlaşması məsələsinin müzakirəsini təklif etdi. Və biz bu yaxınlarda Dövlət Dumasının spikerinin təşəbbüsü ilə yığıncaqda Volqanın dayazlaşması problemini və bunun niyə baş verdiyini müzakirə etdik. Xəzərin və Volqanın dayazlaşması prosesləri bir-birinə bağlıdır. Və burada problem təkcə istiləşmə deyil. Məsələnin gündəliyə salınması ilə bağlı razılığa gəldik.

Azərbaycan Milli Məclisində də görüşlər keçirdim, orada başqa məsələlərlə yanaşı, bu mövzunu da müzakirə etdik.

Deyə bilərəm ki, bəzi dövlətlərin vaxtaşırı Rusiyaya qarşı qeyri-dost münasibət sərgilədiyi bir vaxtda Azərbaycan bu gün əsl qonşu və dostdur. Mənim üçün İlham Əliyevin ötən həftə Moskvaya səfərinin necə keçdiyi, iki lider arasında necə səmimi, səmimi ünsiyyətin olması hər hansı sözdən daha yaxşı idi. Beş saat danışdılar. Təhlükəsizlik, nəqliyyat və logistika layihələri və digər sahələrdən.

**- Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun alt mövzusu “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” idi. İlham Əliyev salamlama nitqində mahiyyətcə aydın şəkildə bildirdi ki, forumun mövzusu mədəniyyətlərarası dialoq məsələlərindən çox kənara çıxır. Müzakirələrdə təhlükəsizlik, dinlərarası dialoq, dövlətlərin işlərinə müdaxilə, neokolonializm və daha çox şeylər müzakirə olunur...**

- Bu doğrudur. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu bugünkü çətin geosiyasi reallıqlarda çağırışlara cavab vermək və dialoq qurmaq baxımından mühüm adlandırmaq olar. Orada Rusiya nümayəndə heyəti iştirak edib. Bu o deməkdir ki, biz və Azərbaycan bu gün bu və ya digər dərəcədə eyni istiqamətə baxırıq. Rusiya ilə Qərb arasında münaqişənin davam etdiyi bu gün Rusiya Federasiyası da müxtəlif sahələrdə mədəniyyət və dialoqa xalqlar arasında qarşılıqlı əlaqə vasitəsi kimi baxır. Buna misal olaraq, Qərb ölkələrindən də iştirakçıların gəldiyi Kazanda keçirilən Gələcək Oyunları göstərmək olar. Bu gün kimlərsə rus mədəniyyətini ləğv etməyə çalışanda təbii ki, bütün ağıllı ölkələr bunun mümkün olmadığını başa düşürlər.

Azərbaycan 2008-ci ildə ilk növbədə mədəniyyətlərarası dialoq ideyası olan “Bakı Prosesi”nin təşəbbüskarı oldu. Azərbaycan Respublikası belə bir təşəbbüslə bir daha sübut edir ki, o, təkcə milli maraqları deyil, həm də dünyada, qlobal siyasi proseslərdə ədaləti düşünən məsuliyyətli dövlətdir. Azərbaycan bu gün də noyabrda Bakıda keçiriləcək BMT-nin iqlim konfransında Qlobal Şimal və Qlobal Cənub mövqelərini bir araya gətirmək niyyətində olduğunu bəyan edib. Bu, artan geosiyasi çağırışlar fonunda Bakının mühüm, ciddi vəzifəsi və məsuliyyətli fəal yanaşmasıdır. Bu gün isə forum çərçivəsində Azərbaycan dialoq prizmasından təhlükəsizlik mövzusunu qaldırıb-mədəniyyətlərarası, dinlərarası, enerji, təhsil, turizm sahələrində əməkdaşlıq.

Həm Rusiyaya, həm də Azərbaycana xas olan multikulturalizm mövzusu da diqqət mərkəzində olub.

İlham Əliyevin forumdakı açılış nitqində danışdığı bir çox sahələrdə Rusiya və Azərbaycan yanaşmalarına görə oxşardır. Aydındır ki, bizim və Azərbaycanın vəziyyətini tam şəkildə proqnozlaşdırmaq mümkün deyil. Və eyni zamanda, məncə, ümumi yanaşmaları bir çox cəhətdən inkar etmək olmaz. Bizim vəzifəmiz– həm Rusiya, həm də Azərbaycanın– müharibə deyil, sülhdür. Amma Azərbaycan rəhbərinin qeyd etdiyi kimi, bəzən dövlətin təhlükəsizliyini təmin etmək üçün hərbi təyyarəyə keçmək lazımdır.

Təbii ki, bu gün yenidən müşahidə etdiyimiz təlatümlər, digər məsələlərlə yanaşı, yeni müstəmləkəçilik siyasətini həyata keçirmək cəhdlərindən qaynaqlanır. Bunları öhdəsinə götürənlər yaxşı niyyətlər arxasında gizlənirlər, amma əslində bütün bunlar – əvvəlki kimi – öz iradəsini başqalarına diktə etmək istəyidir. İlham Əliyev forumda bu barədə danışıb. Azərbaycan Prezidentinin də qeyd etdiyi eyni cəhdlər bu gün də Cənubi Qafqazda davam etdirilir. Bölgəni yenidən yandırmaq cəhdləri var. Və onu görməmək mümkün deyil. İlham Əliyev isə olduğu kimi danışmaqdan çəkinmir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili-Azərbaycan dövlətçiliyi müasir mərhələdə” istiqaməti çərçivəsində hazırlanıb.***





# Sürücülük imtahanlarında şəffaflıq necədir?



***Məlumdur ki, son zamanlar dəhşətli avtomobil qəzalarının ardı-arası kəsilmir. Bəs, bu nədən qaynaqlanır? Sürücülük imtahanlarında nəzarət necə olmalıdır? Hansı yenilik və təkliflərə açıq olmalıyıq? SİA mövzu ilə bağlı nəqliyyat ekspertlərinin fikirlərini öyrənib.***

**Nəqliyyat eksperti Aslan Əsədov:** "Son vaxtlar sürücü-sərnişin, sürücülərin bir-biri ilə münasibəti və qəzaların artması sosial şəbəkələrdə, müxtəlif media orqanlarında işıqlandırılır. Sürücülük imtahanında şəffaflığın təmin olunması məsələsinin müzakirəsi də buradan qaynaqlanır. Burada əsas başlıca məqsəd ondan ibarətdir ki, kim olursa-olsun, hər bir şəxs yol hərəkəti qaydalarını mənimsəməlidir. Bu bir aksiomadır və başqa cür müzakirə edilə bilməz. Belə olduğu təqdirdə, hər şey daha yaxşı olacaq. Əgər bunlara əməl edilməsə, şəffaflıq və qəzaların sayının azalmasından söhbət gedə bilməz".

## EKSPERTLƏR ARASINDA SORĞU

**Nəqliyyat eksperti Eldəniz Cəfərov** isə fikirlərini bu cür ifadə edib: "Sürücülük imtahanlarında şəffaflığın təmin olunub-olunmaması barədə müvafiq qurumlarda məlumatlar daha dolğun olar deyə düşünürəm.

İmtahanlarla bağlı təklif və irada gəldikdə isə mən burada sürücülük kursları mövzusuna toxunmaq istəyirəm. Sürücülük kurslarına nəzarət gücləndirilməlidir. Orada həqiqətən də sürücülük təlimləri yüksək ixtisaslı peşəkarlar tərəfindən aparılsın və sürücülük mədəniyyəti aşılansın".

***Ayşən Vəli***

# Gəncədə məktəbli bıçaqlandı

Mayın 2-də Gəncə şəhər 17 nömrəli tam orta məktəbin şagirdləri arasında dərsdən sonra məktəb binasından kənarda insident (şagirdlərin bir-birinə xəsarət yetirməsi) yaşanıb. Gəncə-Daşkəsən Regional Təhsil İdarəsindən SİA-ya bildirilib ki, baş vermiş hadisə ilə bağlı dərhal hüquq-mühafizə orqanlarına məlumat verilib, hazırda araşdırma aparılır. Araşdırmanın nəticəsi barədə ictimaiyyətə məlumat veriləcək.

Qeyd edilib ki, məktəb rəhbərliyi və kollektivi insident zamanı xəsarət almış şagirdə baş çəkib, vəziyyəti ilə maraqlanıb.



Şagirdin vəziyyəti yaxşı olaraq qiymətləndirilir.



# Təzyiqi olanlar bunları yesin

***Yüksək təzyiq (hipertoniya) 40 yaşdan sonra bir çox insanlarda rast gəlinir. Təzyiqi dərmanla yanaşı bitki və quru meyvələrlə də salmaq mümkündür.***

Axşam.az təzyiq xəstələri üçün lazımlı olan quru meyvələri təqdim edir:

**Quru əncir**

Kalsium, fosforla zəngindir, ürək-damar sistemi üçün effektivdir.

**Kişmiş**

Kişmişin suyu və özü təzyiqi salır. Qanı artırır.

**Qara gavalı**

Böyrəklərin işini tənzimləyərək ürəyə düşən təzyiqi azaldır.

**Ərik qurusu**

Ərik qurusu ürəyin birinci dərmanıdır.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# Messi yenə ən yaxşı futbolçu seçildi

***ABŞ-nin "İnter Mayami" klubunun hücumçusu Lionel Messi MLS-də ötən ayın ən yaxşı oyunçusu seçilib. Belə ki, 36 yaşlı superulduz apreldə meydana çıxdığı 4 oyunda 6 qol və 3 məhsuldar ötürmə ilə yadda qalıb.***

Qeyd edək ki, fevral-mart aylarının ən yaxşı oyunçusu mükafatını "İnter Mayami"nin digər hücumçusu Luis Suares qazanıb.

## Çində YENİLİK: 2 nəfərlik uçan avtomobil satışa çıxarılır

Çinin elektrik avtomobil istehsalçısı "XPeng" ilin sonuna qədər uçan "XPeng Aeroht"un ilkin satışına hazırlaşır. Bu barədə şirkətin vitse-prezidenti Vanq Tan elan edib.

O, iki nəfəri havaya qaldıra biləcək modul avtomobilin satışına 2025-ci ilin əvvəlinə qədər başlamağı planlaşdırdığını açıqlayıb. Belə bir avtomobilin ilkin dəyəri təxminən 250 min dollar olacağı güman edilir.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**